

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## 17 oktyabr 2020-ci il: Gəncə terroru




4


SƏS

№ 191 (7116)

17 oktyabr 2024-cü il.
Qiymәti 60 qәpik


## Qarabağ iqtisadiyyatının onurğası:
# FÜZULİ




2

# Qərb Gürcüstanı xaosa sürükləyir!




3

## Həyat və sağlamlıq üçün ciddi təhlükə: mina terroru



10

## Qadın maksimum neçə övlad sahibi ola bilər?



13

## Eynəkli uşaqların artma səbəbi telefonlardır?



14

## Əli Kərimli məhkəmə qarşısına çıxarılmasından niyə qorxur?



14

## Qərb Cənubi Qafqaza Tiflisdən "girişir"?



5

# Qarabağ iqtisadiyyatının onurğası: FÜZULİ






***Qarabağ işğalda olduğu müddətdə Azərbaycan iqtisadiyyatından əhəmiyyətli pay da işğal edilmiş sayılırdı. Çünki Qarabağın təbii ehtiyatlarla zəngin torpağı ölkəmizin iqtisadi gəlirlərində əhəmiyyətli paya malik idi. Belə ki, Dağlıq Qarabağda 5 qızıl, 7 civə, 2 mis, 1 qurğuşun və sink, 1 daş kömür, 6 gəc, 4 vermikulit, 1 soda istehsalı üçün xammal, 12 əlvan və bəzək daşları, 10 mişar daşı, 21 üzlük daşı, 9 gil, 20 sement xammalı, 8 müxtəlif növ tikinti daşları, 6 əhəng xammalı, 10 qum-çınqıl, 4 tikinti qumu, 1 perlit, 8 pemza-vulkan külü, 16 yeraltı şirin su və 11 mineral su yatağı var. Bundan əlavə Qarabağ nadir bitki örtüyü ilə də dünyada məşhur olan bir ərazi olub.***

## Ən qədim yaşayış məskəni

1993-cü ildə Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilən Füzuli rayonu 29 il ara ilə iki dəfə işğaldan azad edilib. 1994-cü il Horadiz əməliyyatı zamanı rayonun bir hissəsi işğaldan azad edildikdən sonra 2020-ci il 17 oktyabr tarixində Füzuli rayonu işğaldan tam azad olunub. Füzuli rayonunun əhalisi Qarabağ müharibəsində ölkəmizdən ən çox itkin və şəhid verən rayondur. Füzulinin 1100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var.

Füzuli Qarabağ dağ silsiləsinin cənub şərq ətəklərindən Araz çayına qədər maili düzənlik və alçaq sahələri əhatə edir. O, Cəbrayıl, Xocavənd, Ağcabədi, Beyləqan rayonları və Araz çayı boyunca İranla həmsərhəddir. Rayonun əsası 1930-cu ildə qoyulub və Qaryagin adlandırılıb. 1959-cu ilin aprelində böyük şairimiz Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Qaryagin rayonunun adı dəyişdirilərək Füzuli adlandırılıb.

Füzuli rayonu ərazisində müxtəlif dövrlərdə Qaraköpəktəpədə, Qarabulaq kurqanlarında, Günəştəpədə, Quruçay sahillərində və digər yerlərdə tədqiqatlar aparılıb, Azərbaycanın qədim kökə sahib olduğu sübut edilib. 1968-ci ilin yayında mərhum arxeoloq-alim Məmmədəli Hüseynov tərəfindən aşkar olunmuş preneandertal-Azıxantrop adamının alt çənəsinin sümükləri rayon mərkəzindən 15 km aralı məsafədə yerləşən Azıx mağarasında tapılıb. Azərbaycanın arxeologiya elminin böyük nailiyyətləri olan bu abidə Qarabağın Füzuli ərazisində vaxtilə qədim paleolit dövrünün mövcudluğunu sübut etdi.

## Vandallar tarixi silməyə çalışıblar

Füzuli rayonunda Əcəmi memarlıq məktəbinin təsiri ilə inşa olunan bir sıra memarlıq abidələri var idi. Çox təəssüf ki, Əhmədalılar və ya Arğalı türbəsi (XIII əsrin sonu), Babı türbəsi (1273-cü il), Aşağı Veysəlli kəndində hamar daşdan tikilən qülləvari Mirəli türbəsi (XV əsr), Qarğabazar kəndində Hacıqiyasəddin məscidi (1682-ci il), Karvansara (1684-cü il), Qoçəhmədli kəndində məscid (XVIII əsr), Füzuli şəhərində Hacı Ələkbər məscidi (XIX əsr), "Məşədi Həbib" hamamı (XIX əsr), Merdinli kəndi yaxınlığında daşdan yonulan at, qoç fiquru qədim abidələri (XVIII-XIX əsrlər) və s. bu kimi tarixi əhəmiyyət daşıyan abidələrimiz ermənilərin vəhşi vandalizminə məruz qalıb, məhv edilib.

Füzuli rayonunun çoxşaxəli aqrar potensialı var. İşğal nəticəsində rayonun sərvətləri düşmən tərəfindən talan edilib, kənd yerlərində təsərrüfatla məşğul olan əhali məcburi köçkün vəziyyətində ölkənin digər və şəhər rayonlarında məskunlaşmağa məcbur qalıb, yaşayış binaları, ümumi infrastruktur, o cümlədən kənd təsərrüfatı istehsalı üçün zəruri infrastruktur obyektləri darmadağın edilib. 27 il davam edən işğal rayona təxminən 7 milyard ABŞ dolları civarında maddi zərər vurub.

## Füzuli rayonu bölgə iqtisadiyyatının onurğasıdır

Aqrar rayon olan Füzulidə iqtisadiyyatın əsas sahəsini kənd təsərrüfatı təşkil edir. Rayonda mühüm ərzaq məhsulu olan taxılçılığın inkişaf etdirilməsi istiqamətində tədbirlər həyata keçirilib. Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilərimizin kifayət qədər böyük iqtisadi potensialı var. Onların arasında Füzuli rayonu iqtisadi potensialına görə seçilən rayonlardan biridir.

Füzuli ötən əsrin 80-ci illərində pambıq, daha sonra üzüm və taxıl istehsalına görə respublikada aparıcı rayonlardan biri olub. 150 min əhalisi olan Füzulinin torpaqları əsasən məhsuldar torpaqlar hesab olunduğuna görə kənd təsərrüfatının inkişafı imkanları kifayət qədər böyükdür. Burada təkcə əkinçilik deyil, eyni zamanda heyvandarlığın inkişafı imkanları da var. Füzuli rayonu və eləcə də Füzuli şəhərinin işğaldan azad edilməsi imkan verəcək ki, qısa zamanda rayonun iqtisadiyyatı bərpa edilsin və respublika iqtisadiyyatına xüsusi töhfə verəcək rayon olsun.

Rayonda bir sıra təbii ehtiyatlar, o cümlədən inşaat materiallarının istehsalı üçün xammal bazası da mövcuddur. Bu da imkan verəcək ki, bölgədə sənayenin formalaşması, sənaye müəssisələrinin yaradılmasını daha rahat həyata keçirmək mümkün olsun. Füzuli rayonu turizm potensialına da malikdir. Xüsusən Dağlıq Qarabağa yaxın olan kəndlərinin təbiəti imkan verir ki, daxili turizm üçün yeni imkanlar yaransın.

Naxçıvan kooridorinu birləşdirəcək dəmiryolu Füzuli rayonundan keçəcək. Nəticədə işğaldan azad olunmuş ərazilərimizin nəqliyyat HAB-ı olaraq bu imkanlardan iqtisadi baxımdan daha çox faydalanmasına imkan verəcək. Bu da orada istehsal olunan məhsulların digər rayonların bazarına çıxarılması baxımdan çox vacibdir. Bütövlükdə Füzuli rayonu öz potensialı ilə qısa zamanda respiblikanın iqtisadi baxımdan inkişaf etmiş aparıcı rayonların birinə çevrilmək imkanlarına malikdir.

## Heyvandarlıq və əkinçilik üçün münbit şərait

Rayonun mövcud torpaq örtüyündə əsasən boz və çəmən-boz, şabalıdı və açıq-şabalıdı, dağ-şabalıdı, dağ boz-qəhvəyi torpaq tipləri yayılıb. Yuxarı Qarabağ iqtisadi rayonunda ən çox suvarılan torpaqlar Ağdamdan sonra Füzuli rayonundadır. Rayonun ərazisi əsasən Araz, Köndələnçay, Şapartı, Quruçay və Qozluçay çayları ilə suvarılır. Suqovuşan, Xudafərin və Sərsəng su anbarlarının Füzulinin əkin torpaqlarının suvarılması üçün istifadə edilməsi nəticəsində rayonun kənd təsərrüfatının inkişafına çox yüksək töhfə verməsi gözlənilir.

Füzuli rayonunda 25.5 min ha. örüş-otlaq və biçənək sahəsi var və əhalinin maldarlıq sahəsində olan təsərrüfatçılıq ənənələri olduqca qədimdir. Rayonda heyvandarlıq sektoru ilə bağlı aqrar potensial yüksək olub. Rayonun örüş-otlaq və biçənək sahələri respublikanın müvafiq sahələrinin təxminən 1,1 faizini təşkil edir. Ərazisində hakim olan iqlimin və bol sulu çaylarının verdiyi imkanlara görə rayon sakinləri həm bir illik əkmələr, həm də çoxillik əkmələri rahat becərə bilirdilər. Füzuli rayonunda sovetlər dönəmində əkinçiliyin əsas sahələri olan taxılçılıq, pambıqçılıq, şəkər çuğunduru, üzümçülük və tərəvəzçilik inkişaf etdirilmişdi. Rayon ərazisində taxıl zəmiləri, pambıq tarlaları, üzümlüklər, meyvə bağları geniş sahələri əhatə edirdi. Heyvandarlıq sahəsində isə baramaçılıq xüsusilə fərqlənirdi.

27 illik işğaldan azad edildikdən sonra Füzuli rayonda geniş quruculuq işləri aparılır, yeni məktəblər, xəstəxanalar, binalar tikilir, iqtisadi imkanlar genişləndirilir. Rayona vurulan maddi və mənəvi zərər nəhəngdir, lakin əminik ki dövlətimiz bu işin öhdəsindən gələcək və yaxın illərdə Füzuli rayonu yenidən öz iqtisadiyyatını, mədəniyyətini dirçəldəcək.

***Lalə Mehralı***

# Qərb Gürcüstanı xaosa sürükləyir!

***Gürcüstan seçkilərə hazırlaşır. Cəmi 10 gündən sonra bu ölkənin istiqaməti müəyyənləşəcək, Qərbə, yoxsa Moskvaya doğru meyllənəcəyi bəlli olacaq. Parlament seçkiləri həm Rusiyanın, həm də ABŞ başda olmaqla Qərb blokunun diqqətindədir. Hakim "Gürcü arzusu" partiyasının xarici siyasi kursunda baş verən dəyişiklik iki qütbü bir ölkənin gələcək taleyində rəqibə çevrilib. Bəzi analitiklər hətta Gürcüstanda baş verəcək, daha doğrusu ehtimal olunan hadisələrin bütövlükdə regionda sülhün, yoxsa qarşıdurmanın hakim olacağını proqnozlaşdırırlar. Rəsmi Tbilisi son illərdə təhlükəsizlik ilə bağlı ciddi narahatlıqların fərqindədir.Həm də bu narahatlıq Rusiya ilə bağlı deyil, əksinə müttəfiq saydığı Qərbdən gəlir. Buna görə Gürcüstanla Qərb arasında soyuq küləklər əsir.***

Bəs Gürcüstanı nədən narahatdır? Axı dünənə qədər bu ölkəni bütün mənalarda yönləndirən, ona ilham verən Qərb deyildimi? Bəli, hər münasibətin bir sonu da varmış. Qərbin Gürcüstanın daxili işlərinə ifrat dərəcədə müdaxiləsi münasibətlərin pozulmasına gətirib çıxarıb. Brüsselin, Vaşinqtonun dəstəklədiyi "cəmiyyət institutları"nın bir gün Gürcüstana başağrısı olacağı qaçılmaz idi. Tbilisinin milli maraqlardan çıxış etməsi, necə deyərlər, bir anlığa özünə qayıtması hər şeyi dəyişdirdi və parlament çox mühüm qərarlar qəbul etdi. Öncə "Xarici agentlər" haqqında qanun qəbul edildi, ardınca LGBT təbliğatını qadağan edən qanun qüvvəyə mindi. Bütün bunlar Qərbə çox ciddi mesaj oldu. Tbilisi bununla Qərbin Gürcüstandakı təsir gücünü zəifləmək planını işə saldı. Seçki öncəsi atılan bu iki addımla Gürcüstan müəyyən mənada istəyinə nail oldu.









Gürcüstanın Qərblə münasibəti Kremli də aktivləşdirib. Moskva 2008-ci ildən bəri siyasi münasibətlərin kəsildiyi Tbilisi ilə buzları əritmək, münasibətləri normallaşdırmaq niyyətini ortaya qoydu. Bununla da oktyabrın 26-da keçiriləcək parlament seçkilərində Rusiya-Qərb geosiyasi qarşıdurmasının yeni mərhələsinə start verdi. Bəs Gürcüstanın Qərbdən niyə uzaqlaşdı? Sual düşündürücüdür. Görünür bunun yeganə səbəbi Qərbin verdiyi sözü tutmamasıdır. Gürcüstan Avropa İttifaqına və parallel olaraq NATO-ya üzv olmaq niyyətində idi. Amma onu oyundankənar vəziyyətə salan Qərb Moldova və Ukrayna üzərində dayanmağı məqbul saydı. Tbilisi bunun əvəzində "Xarici agentlər" haqqında qanun qəbul etdi və avropalıların sevimli "təriqəti" sayılan LGBT barədə ciddi ölçü götürdü.

Bu gün Qərbin yeganə və təhlükəli rıçaqlarından biri olan cəmiyyət institutları ölkədə çaxnaşma yaratmaq üçün hazırlıqlara başlayıblar. Əslində, gürcü politoloqların dediyi kimi, müxalifət seçkilərə yox, seçkilərdən sonrası dövrə hazırlıq görür. Bütün bunlara baxmayaraq "Gürcü arzusu" partiyasının hazırda reytinqi yüksəkdir. Yeni seçkilərdə qələbə qazanmaq şansı böyükdür. Gürcüstan hakimiyyəti Azərbaycanın uzun müddətdir tətbiq etdiyi balanslı siyasətdən yararlanmağa çalışır. Yəni, Azərbaycan bu gün Rusiyaya qarşı heç bir beynəlxalq koalisiyaya və ya sanksiyalara qoşulmur. Həm də Qərblə əməkdaşlıq edir. Ukraynaya da humanitar yardım göstərir. Bundan başqa Bakı ayrı-ayrılıqda ABŞ, Çin, İran, Hindistan ilə ikitərəfli münasibətləri yüksək səviyyədə tutur. Bir sözlə, Azərbaycan bütün güc mərkəzləri ilə münasibətlər qurub.

Gürcüstana köhnə dostlarından - Qərb ölkələrindən zərbə zərbə dalınca gəlir. Böyük Britaniya Gürcüstanla təhlükəsizlik sahəsində illik dialoqu və müdafiə sahəsi ilə bağlı digər danışıqları dondurub. Bunu Britaniyanın Gürcüstandakı səfiri Garet Uord müsahibəsində deyib. Səfir bildirib ki, bunun səbəbi Tbilisinin demokratiya yolundan geri addım atmasıdır. O qeyd edib ki, biz Gürcüstanın dayanıqlılığı və ümumi rifahını gücləndirmək üçün birlikdə çalışacağıq. Lakin son bir il ərzində Gürcüstan hökuməti fərqli kurs seçib. Gürcüstanın Avropa İttifaqına üzvlük prosesi xarici agentlər haqqında qanununun qəbulundan sonra dayandırılıb.

Gürcüstanın baş naziri İrakli Kobaxidze deyib ki, gələn ildən Qafqaz ölkəsinin Aİ və ABŞ ilə münasibətləri "yenidən qurulmaqla xeyli yaxşılaşacaq". 2025-ci ildə "Ukraynada müharibə bitəcək" və "tamamilə yeni reallıq gələcək". Ukraynada "birinci cəbhə" bitən kimi Gürcüstanda ikinci cəbhənin açılmasına maraq dərhal aradan qalxacaq. Əvvəllər Kobaxidze dəfələrlə bildirib ki, ABŞ administrasiyasına, eləcə də Avropanın ən böyük dövlətlərinin administrasiyalarına nəzarət edən "qlobal müharibə partiyası" Gürcüstanda Rusiyaya qarşı ikinci cəbhə açmağa çalışır. Eyni zamanda hakim "Gürcü Arzusu" partiyasının baş katibi, Tbilisi şəhərinin meri Kaxa Kaladze jurnalistlərə bildirib ki, Aİ-nin siyasəti SSRİ-nin ittifaq respublikaları ilə bağlı qərarlara "möhür vuran" dövrünü xatırladır.

Gürcüstanın Böyük Britaniya ilə, eləcə də digər Qərb tərəfdaşları ilə münasibətləri bu il "Gürcüstan hökumətinin atdığı addımlar nəticəsində korlanıb". O, xüsusən də parlamentin qəbul etdiyi xarici agentlər haqqında qanunu xatırladıb. "Gürcü arzusu"nun liderləri sui-qəsd nəzəriyyələrini təbliğ etməyə və Qərb tərəfdaşlarının Gürcüstanı sarsıtdığına dair faktları irəli sürməyə başlayanda onlar məyus olublar.

Qeyd edək ki, may ayında Gürcüstan parlamenti Xarici Agentlər Qanunu kimi tanınan "Xarici təsirin şəffaflığı haqqında" qanunu təsdiqləyib. Sənədə baxılması kütləvi etirazlarla müşayiət olunub. Parlament seçkiləri ərəfəsində müxalifət koalisiyasına rəhbərlik edən prezident Salome Zurabişvili Konstitusiya Məhkəməsi vasitəsilə qanunun qüvvəsini dayandırmağa cəhd etsə də, məhkəmə bundan imtina edib. Avropa İttifaqı isə buna dərhal reaksiya verib və ilkin olaraq Gürcüstanla vizasız rejimi dayandırıb.

## Müxalifətin 1000 lari təqaüd məsələsi

Müxalifət seçkiqabağı təbliğat kampaniyasında seçiciləri aldatmaq, onları öz tərəfinə çəkmək üçün hər cür oyunlara gedir. Hətta müxalifət onlara səs verəcəkləri, qalib edəcəkləri halda seçicilərə hər ay 1000 lari, yəni 620 manat təqaüd vəd ediblər. "Müxalifətin 1000 lari təqaüd məsələsi ilə bağlı seçki vədi yalan və blefdir". Gürcüstan mediası xəbər verir ki, bu barədə fikirləri Tbilisi meri Kaxa Kaladze deyib. Onun sözlərinə görə, belə olan halda qeyd olunan məbləğ hansısa istiqamətdən tutulmalıdır ki, bu da ağlasığmazdır: "Yadımdadır, bu vəd ilk dəfə açıqlananda telekanalların birində debat etmişdilər. Digər tərəfdən, səhv etmirəmsə, "Qırçı"nın təmsilçisi də var idi. Orada insanların necə aldadıldığı tam bir şəkil önə çəkildi. Elementar riyaziyyatı bilmirdilər, nə vəddən, hansı 1000 lari pensiyadan danışırıq?! Bu adi blef, yalan və cəfəngiyyatdır. Onların 1000 lari pensiya təyin etmək niyyəti ilə bağlı heç bir arqumentləri yoxdur. Bu inanılmazdır?! Sonra nəyisə çıxarmalı və nəyi çıxardığını söyləməlidir. Sağlamlığı azaldırmı? Onun infrastrukturu yoxdur? Hansı istiqaməti kəsməlidir? İnanılmazdır".

Gürcüstanın baş naziri İrakli Kobaxidze jurnalistlərə açıqlamasında bildirib ki, "Gürcü arzusu"nun reytinqi təxminən 60 faizdir. Belə bir şəraitdə müxalifətin texniki hökuməti haqqında danışmaq farsdır. Baş nazirin sözlərinə görə, seçkilər həmişəki kimi keçiriləcək, parlamentin ilk iclası noyabrın sonu dekabrın əvvəlində keçiriləcək. Qondarma deyil, normal hökumət təyin olunacaq. Təqdim olunan, həyata keçirilməsi üçün yazılmayan plan isə ölkəni düz 1 il bütövlükdə dayandırmaq və bu müddətdə ölkəni müharibəyə cəlb etmək, ölkəni narahat etmək deməkdir. Bu, onların planı, tapşırığı və məqsədidir ki, hələ həyata keçirilməyib.

"Xalq hakimiyyəti" partiyasının icraçı katibi Quram Maçaraşvili isə deyib ki,Avropa İttifaqı ölkələri xarici işlər nazirləri gündəlikdə nəzərdə tutulanlardan başqa yeni bir şey deyə bilməzlər. Bu, acınacaqlı vəziyyətdir, lakin xoşbəxtlikdən Avropada Gürcüstanın pərəstişkarı olan insanlar var. Onun sözlərinə görə, Avropa İttifaqı ölkələrinin xarici işlər nazirlərinin Lüksemburqda keçirilən görüşündə Maçaraşviliyə sual verilib. Burada digər məsələlərlə yanaşı, Gürcüstan məsələsi də müzakirə olunub. Avropa Parlamentində bir çox deputatlar meydana çıxıb və Gürcüstanın suverenliyini dəstəkləyiblər. Xarici qüvvələr Gürcüstanda milli hökumətin olmasını istəmirlər. Onlar istəyirlər ki, müxalifətdə və Salome Zurabişvili məsələsində baş verənləri açıq şəkildə gördüyümüz kimi əvvəldən axıra qədər xarici qüvvədən asılı olacaq bir hökumət olsun. Hətta xarici güc də artıq əlini yelləyib ki, müxalifət ən azı qələbəyə bir az da yaxınlaşacaq.

Qərbin dəstəklədiyi müxalifər 26 oktyabrdan əvvəl deyil, ondan sonrakı vəziyyətlə bağlı bəyanatlar verir. Amerika səfirliyinin mesajı 26-dan əvvəl deyil, sonra küçəyə çıxmaqdan çəkinməmək barədədir. Bilirlər ki, tamamilə uduzacaqlar və indi "B" planı var, ölkədə radikal proseslər gözlənilir. Onlar bilirlər ki, bu seçkilər də onların qələbəsi ilə bitməyəcək və Gürcüstan dövləti qalib gələcək. Amma çalışacaqlar, çünki onların başqa yolu yoxdur.

***V.VƏLİYEV***

# 17 oktyabr 2020-ci il: Gəncə terroru




***Yaşadığımız yüzillik bəşər sivilizasiyasının yüksək nöqtəsi olaraq qəbul edilir və ağılın, idrakın sivil nöqtəyə yüksəldiyi zamanda insana sui-qəsdin edilməsi, düşünülmüş terrorun törədilməsi əlbəttə ki, qəbuledilən deyil. Terrorizm müasir dövrün ən təhlükəli təzahürlərindən biridir və müasir dünya bunun acı nəticələrini hələ də yaşayır. Terrorizm siyasi, dini, ideoloji və iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni əməllərin, zorakılığın, gücün, hədənin tətbiq olunmasıdır. Müasir dünyanın toqquşduğu əsas və təhlükəli problemlərdən olan terrorizm daha çox siyasi, etnik, dini və s. zəminində yaranır. Əlbəttə ki, bu siyasi, iqtisadi və mənəvi ziyanla nəticələnir və hər bir dövlət, hər bir insan bunun qurbanına çevrilə bilər.***

Təbii ki, real həyatda terror aktlarından daha çox günahsız insanlar, dövlət adamları ziyan çəkir və siyasi, etnik, dini və s. zəmində yaranan terrorların şahidi oluruq. Azərbaycan xalqı ermənilər tərəfindən tarixi dövrlərdə soyqırıma, terrorlara məruz qalmışdır. Ermənilərin Azərbaycan torpaqlarında törətdiklər terrorçuluq, işğalçılıq, soyqırımı bunu təsdiqləyir. Tarixə diqqət etsək görərik ki, iki yüz ilə yaxın bir dövrdə təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı yeridilən soyqırımı siyasətinin acı nəticələrini yaşamışıq.

44 günlük müharibə dövründə də erməni vandallığının, terrorunun acılarını da yaşadıq. Vətən müharibəsi dövründə dinc insanlara, mülki əhaliyə qarşı etdikləri əməllər, işğaldan azad olan torpaqlarımızı tərk edərkən törətdikləri yanğınlar ermənininin faşist ideologiyasının təzahürüdür. Ermənistanın ötən əsrin 90-cı illərində olduğu kimi, Vətən müharibəsində də törətdikləri terrorçuluq dünyanın nüfuzlu nəşrlərində və sosial şəbəkələrdə yer aldı. Ermənistanın beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə də mülki əhalinin kompakt yaşadığı ərazilərdə raket zərbələri endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını bir daha ortaya qoymuş oldu. Döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistanın cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə aldı.

## DEMOKRATİK CÜMHURİYYƏTİN MÜSTƏQİLLİYİ UĞRUNDA SONA QƏDƏR VURUŞMUŞ ŞƏHƏR

Beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən beynəlxalq humanitar hüquq, eləcə də 2020-ci ilin oktyabrın 10-da Moskvada qəbul olunmuş humanitar atəşkəsi Ermənistan kobud şəkildə pozaraq mülki insanların məqsədli şəkildə öldürülməsi müharibə cinayəti və insanlıq əleyhinə cinayətdir. Rusiyanın vasitəçiliyi ilə oktyabrın 10-da humanitar atəşkəs razılaşmasını da kobudcasına pozan Ermənistan silahlı qüvvələri Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni bir neçə dəfə "Elbrus" ballistik raketlərlə bombaladılar. Oktyabrın 17-də gecə saatlarında Gəncəyə edilən növbəti qəddar hücum nəticəsində 13 mülki şəxs, o cümlədən 2 uşaq həyatını itirdi, 45-dən çox insan ağır yaralandı. Dinc əhaliyə qarşı törədilən bu amansızlıqlar müharibə cinayətidir.

"Bu gecə erməni təcavüzkarları Gəncəyə xaincəsinə hücum ediblər. Niyyət sadə və eyni zamanda, dəhşətlidir - mümkün qədər çoxsaylı dinc sakinləri məhv etmək, panika yaratmaq, Azərbaycan xalqını qorxutmaq. Lakin təcavüzkar heç vaxt öz çirkin məqsədlərinə nail olmayacaq. Bu şanlı şəhərin sakinləri ruhən çox güclüdürlər! Gəncə - Nizamidir, Məhsətidir, Vazehdir! Lakin Gəncə təkcə Azərbaycanın mədəni irsi deyil. Gəncə - qədim dövlətçiliyimizin beşiyidir. Bu, sarsılmaz dözüm, mərdlik və igidlik rəmzidir! Gəncə Cavadxanın yurdudur. Bu şəhər Şərqdə ilk demokratik cümhuriyyətin müstəqilliyi uğrunda sona qədər vuruşmuş şəhərdir. Gəncə Azərbaycanın döyünən ürəyidir və heç kəs heç vaxt onun sakinlərinin məğrur ruhunu sındıra bilməz!" Bu fikirlər 17 oktyabr 2020-ci ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Ermənistanın Gəncədə törətdiyi terror aktı ilə bağlı rəsmi "Instagram" səhifəsində yer almışdır.

## DÜŞMƏNƏ DÖYÜŞ MEYDANINDA LAYİQLİ CAVAB

Gecə radələrində düşmənin törətdiyi bu vandal aktının cavabı isə dərhal verildi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev oktyabrın 17-də səhər saatlarında xalqa müraciət etdi. Dövlətimizin başçısı müraciətində düşmənə döyüş meydanında layiqli cavab verdiyimizi vurğuladı və Füzuli şəhərinin, rayonun bir sıra kəndlərinin işğaldan azad olunduğunu elan etdi. Bu, Ermənistana, onun rəhbərliyinin törətdiyi cinayətlərə ən tutarlı cavab oldu. Ardınca isə Azərbaycan Respublikası Müdafiə Nazirliyi döyüş meydanında düşmənin çoxlu sayda canlı qüvvəsinin və hərbi texnikalarının məhv edilməsi anlarını əks etdirən videogörüntüləri yaydı. Bu görüntülər də Gəncə terroru qurbanlarının qanının yerdə qalmadığını bir daha əyani şəkildə göstərmiş oldu. Gəncədə törədilən terror günü Füzulinin işğaldan azad edilməsi xəbərini xalqımız aldı.

## AZƏRBAYCAN ORDUSU QARŞISINDA TOTAL ACİZLİYİN TƏZAHÜRÜ

Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistanın Gəncəyə növbəti raket hücumu ilə bağlı rəsmi "Instagram" səhifəsində etdiyi daha bir paylaşımda isə belə yazırdı: "Nə dərəcədə insanlıqdan uzaq, yırtıcı olmalısan ki, şəhərin heç bir hərbi infrastrukturun olmadığı yaşayış məhəllələrinə gecə vaxtı, sakinlər yatarkən raket zərbələri endirilməsi barədə növbəti dəfə əmr verəsən? Bu gecə Gəncəyə xaincəsinə edilən hücum təkcə Ermənistan hakimiyyətinin faşist mahiyyətinə və onun prinsipsizliyinə dəlalət etmir, həm də təcavüzkarın Azərbaycan Ordusu qarşısında total acizliyinin təzahürüdür. Dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir. Bu cinayətə laqeyd qalmaq isə onun iştirakçısına çevrilmək deməkdir! Bu faciə nəticəsində həlak olanların ailələrinə və doğmalarına dərin hüznlə başsağlığı verirəm və bütün yaralıların tezliklə sağalmasını arzulayıram. Ulu Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!".




Ermənistan dövlətinin və erməni diasporasının maliyyə və təşkilatı yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardıqları terrorçuluğun törətdiyi əməllərin qanlı izləri bizlərə yaxşı tanışdır. Ermənistanın insan tələfatına nail olmaq məqsədi həyata keçirdiyi terror aktları nəticəsində minlərlə günahsız insan həlak olmuşdur. Tarix boyu özgə torpaqlarına göz dikən və terrorçu əməlləri ilə qınağa çevrilən ermənilər günahsız insanların ölümünə səbəb olublar. Mülki əhalinin, xüsusilə qadınların və uşaqların, ahılların Ermənistan hərbi qüvvələrinin hədəfinə çevrilməsi onların faşist simasının təzahürüdür, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində, insan hüquqları kobudcasına pozulub, etnik təmizləmə siyasəti və terror aktları günahsız azərbaycanlıların həyatına son qoyulub.

Terrorları törədən Ermənistanın son illərdə və 44 günlük Vətən müharibəsi dövründə törətdikləri vəhşi əməlləri faşist ideologiyasının sahibi olmalarının təsdiqidir. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistanın müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozmaqda davam edib.

## TARİXƏ YAZILAN BÖYÜK CİNAYƏTLƏR

Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı nəticəsində xalqımız misli görünməmiş faciələlər yaşamışdır. 1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdikləri qırğın Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan xalqının dinc həyatına ağır zərbələr vurmuşdur. Belə ki, ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri aramsız soyqırım və deportasiya siyasəti Azərbaycan xalqının yer üzündən tam silmək kimi iyrənc niyyətlərini gösətərmiş olur. Mart hadisələri - Şamaxıda, Qubada, Muğanda, Zəngəzur qəzasında, Qarabağda, İrəvan quberniyasında və ölkənin digər ərazilərində azərbaycanlıların amansızlıqla qətlə yetirildiyini, şəhər və kəndləri talan edilərək dağıdıldığını sübut edir. 1992-ci ilin Xocalı soyqırımı ilə ermənilər Xocalının yer üzündən silinməsini və məhv olmasını reallaşdırdılar. Erməni terrorçularından yayınıb meşələrə və dağlara qaçan insanların çoxu soyuqdan və şaxtadan məhv oldular. Xocalı şəhəri isə yer üzündən silindi. 1992-ci ilin aprel ayının 8-də baş verən Ağdaban soyqırımı tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biri kimi yazıldı. 1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində Ermənistan silahlı qüvvələri və Rusiyanın 366-cı alayı tərəfindən törədilən Qaradağlı qətliamı da Qarabağ münaqişəsi zamanı baş vermişdir. Nəticədə xeyli sayda mülki azərbaycanlı şəxslər ermənilər tərəfindən qətlə yetirilmiş, bir o qədər də əsir alınmışdır. 117 nəfər əsir alınmış, 66-90 nəfər mülki şəxs isə qətlə yetirilmişdir. Öldürülənlərdən 21-i ahıl və qocalar, 10-u qadın, 8-i məktəbli olub. 146 uşaq yetim qalıb. İşğal nəticəsində kənddə 200 yaşayış evi, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb, 25 çarpayılıq xəstəxana binası və digər sosial obyektlər dağıdılıb. Tariximizdə belə hadisələr kifayət qədərdir.

2011-ci il martın 8-də düşmən snayperi tərəfindən səkkiz yaşlı Fariz Arzu oğlu Bədəlov qətlə yetirildi. 2016-cı il Aprel döyüşlərində düşmənin Tərtərin Həsənqaya kəndini atəşə tutması nəticəsində 2000-ci il təvəllüdlü Kəlbəcər sakini Həsənli Turanə Kamandar qızı dünyasını dəyişdi. 2017-ci ilin iyul ayının 4-də Ermənistan silahlı qüvvələri tərəfindən Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrinin və mülki obyektlərin qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutulması nəticəsində, 1967-ci il təvəllüdlü yaşlı qadın Allahverdiyeva Sahibə və onun 2 yaşlı qız nəvəsi Quliyeva Zəhra həlak oldular. Bu mülkü insanlara qarşı törədilən cinayətlərdir. 44 günlük Vətən müharibəsi dövründə erməni hərbçiləri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq Azərbaycanda mülki əhalinin sıx yaşadığı məntəqələrə zərbələr endirib. Artilleriya atəşi nəticəsində dinc sakinlərin evləri dağılıb, infrastruktura ciddi ziyan dəyib.

Ermənistanın 30 ilə yaxın Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməsinə baxmayaraq, Ali Baş Komandanın siyasi iradəsi, dövlətimizin gücü, rəşadətli ordumuzun dönməzdiyi həsrətlə yolumuzu gözləyən tarixi torpaqlarımıza yol açdı. 2020-ci ilin sentyabrın 27-də Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan genişmiqyaslı Vətən müharibəsində Zəfər qazandıq. İşğal altında olan torpaqlarımız düşməndən azad olundu.

***Zümrüd BAYRAMOVA***

# “Narkomaniya bəşəriyyət üçün təhlükə mənbəyidir”

***Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, ”Azərbaycan Televiziyası və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2024-cü il üçün birgə Tədbirlər Planına uyğun olaraq,***







***oktyabrın 16-da İmişli şəhərində ”Narkomaniya bəşəriyyət üçün təhlükə mənbəyidir” mövzusunda tədbir keçirilib.***

Tədbir iştirakçıları əvvəlcə İmişli şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri düzüblər.

İmişli rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, İmişli Rayon İcra Hakimiyyəti (RİH) başçısının birinci müavini, RİH yanında Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyanın sədri Mirzə Quliyev, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev və Səhiyyə Nazirliyi Sumqayıt Şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov çıxış ediblər.

Bildirilib ki, bəşəriyyəti düşündürən ən ağrılı problemlərdən biri narkomaniyadır. Ona görə də bu problemlə mübarizə qlobal xarakter daşıyır. Qeyd edilib ki, bu gün ölkəmizdə narkomaniyaya qarşı mübarizə üzrə normativ-hüquqi bazanın təkmilləşdirilməsi, bu sahədə hüquq-mühafizə orqanlarının fəaliyyətinin daha da gücləndirilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət göstərilir. Xüsusilə, gənclər arasında narkomaniyaya qarşı mübarizədə təbliğat işlərinin daha da gücləndirilməsi mühüm əhəmiyyət daşıyır.

İnteraktiv formada davam etdirilən tədbirdə gənclərin sualları cavablandırılıb.

Tədbir iştirakçılarına narkomaniya ilə mübarizənin təşviqi məqsədilə Dövlət Komissiyasının İşçi qrupu tərəfindən hazırlanmış əyani vəsaitlər paylanıb.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# “Böyük Qayıdış Qarabağ və Şərqi Zəngəzurun hərtərəfli inkişafına böyük bir təkan verir”

“İşğaldan azad edilən ərazilərdə quruculuq işləri bu gün geniş vüsət alıb, demək olar ki, işğaldan azad olunan bütün Qarabağ və Şərqi Zəngəzur bölgəsində davamlı tikinti və quruculuq işləri aparılır, infrastruktur və yollar salınır, yeni bağçalar və məktəblər tikilir. Bütün bunlar Qarabağda yaşayan əhalinin rahatlığına və rifahına xidmət edir”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Vüqar Əhmədov deyib.




O bildirib ki, mədəni irsin qorunması ilə bağlı da mühüm işlər görülür, illərdir ermənilər Qarabağda Azərbaycanın maddi-mədəni irsini talan etmiş, məscidlərimizi, dini abidələrimizi dağıtmışlar, qədim tarixi abidələr və məskənlərimiz saxtalaşdırmaya məruz qalmışdır: ”Hal-hazırda onların bərpası istiqamətində də mühüm işlər aparılır, dağılan məscidlər və abidələr yenidən bərpa olunaraq öz tarixi görkəminə qayıdır.

Aparılan quruculuq işləri tamamlandıqdan sonra keçmiş məcburi köçkünlərin qayıdış prosesi və məskunlaşması uğurla həyata keçilir. Artıq minlərlə məcburi köçkün ailəsi öz doğma torpaqlarına qayıtmış, onların təminatı və məşğulluq məsələləri birbaşa dövlətin qayğısı və himayəsi altındadır. Bir iqtisadi zona kimi də bu gün Qarabağ və Şərqi Zəngəzur inkişaf edir, ölkə başçısı cənab İlham Əliyevin iştirakı ilə yeni iqtisadi və sənaye müəssisələrinin açılışı olur ki, bu da Böyük Qayıdış prosesində keçmiş məcburi köçkünlərin həyat səviyyəsinin yüksəldilməsi, Qarabağın dirçəlişi və çiçəklənməsi, gəlir yerlərinin artırılması baxımından çox önəmlidir.

Qarabağda müxtəlif beynəlxalq səviyyəli mədəni tədbirlər və festivallar keçirilir, dünya liderlərinin sammiti təşkil olunur. Bu il Şuşada baş tutan Türk Ölkələrinin sammitini bu mənada xüsusi qeyd etmək lazımdır. Laçın şəhəri də diqqət mərkəzindədir, MDB ölkələri başçılarının görüşündə Laçın MDB-nin mədəni paytaxtı elan olunub. Bu illər ərzində xarici diplomatlarımızın Qarabağa tanışlıq səfərləri təşkil olunub və reallıqlarla yaxından tanış olublar.

Nəticə etibarı ilə bütün bunlar Qarabağın inkişafını, Böyük Qayıdış prosesinin uğurla aparılmasını göstərən tədbirlərdir.

Ümumilikdə prosesə qiymət versək belə demək olar ki, Böyük Qayıdış prosesi çox uğurla aparılır və bu Qarabağ və Şərqi Zəngəzurun hərtərəfli inkişafına böyük bir təkan verir”.

***Səbinə Hüseynli***



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Qərb Cənubi Qafqaza Tiflisdən “girişir”?

***Hazırkı ABŞ Prezidenti Co Baydenin özəl ”əsəri” sayılan Ukrayna münaqişəsində istədiyini ala bilməyən Qərb dairələri indi bütün diqqətləri Gürcüstanda keçiriləcək parlament seçkilərinə yönəldiblər. Əsasən Rusiyanın regiondan silinib atılması üzərində qurulan qanlı ssenarilər minlərlə günahsız insanın ölümünə, yüz minlərlə, hətta milyonlarla insanın öz yurdyuvasından didərgin düşən səfil həyat yaşamasına səbəb olub. ”Demokratiya” bağıranların dünyadakı nüfuz və mövqe dəyişikliyi üçün ta ”ərəb baharı”ndan başlayan xaos və iğtişaş planları bu gün də öz qüvvəsində qalır. Hətta daha amansızcasına davam edir bu planlar. Səddam Hüseyni dar ağacından asandan sonra minlərlə iraqlını Amerika əsgərlərinin itlərinə yedirənlərin utanmadan ”demokratiya”, ”insan hüquqları” deyib bağırmaları qədər həyasız tabloya heç yerdə rast gəlinmir.***

## ”Gürcüstandakı parlament seçkilərinə müdaxilə Cənubu Qafqazda idarəolunmaz xaos yaradacaq”

Bu gün Ukraynada açıq şəkildə mövqe döyüşü aparan, bu ölkənin Rusiyaya qarşı Qərb üçün əsas cəbhə xəttinə çevrilməsi üçün milyard dollarlar və silah-sursat xərcləyən ABŞ administrasiyası, bu işə Cənubi Qafqazı da əlavə etməyi planlaşdırır. Baxın, son bir neçə gündə Gürcüstan əleyhinə qəbul edilən qərarlar da hazırkı hakimiyyətin bir sıra arzuolunmaz Qərb institutlarının fəaliyyətini məhdudlaşdırmasından sonra baş verdi. Hazırkı ”Gürcü Arzusu” iqtidarı bir neçə il əvvələ qədər Qərb strukturlarına hədsiz meyillənsə də, son nəticədə bu prosesin Gürcüstanın daxili işlərinə müdaxiləyə və arzuolunmaz nəticələrə yol açdığının fərqində oldu. Üstəlik, hazırkı iqtidarın ”şefi” sayılan Bidzina İvanaşvilinin Rusiya Prezidenti Vladimir Putinlə sıx əməkdaşlığa və Rusiyadakı biznes dairələri ilə ticarət əlaqələrinə sahib olması Qərbi qıcıqlandıran məsələdir. Onlar Moskva ilə bütün əlaqələrini birdəfəlik kəsmiş Gürcüstan istəyirlər. Həm də Ermənistanda ”verbovka” etdikləri, amma bu gün bir ayağını Kremldən də kəsməyən Nikol Paşinyandan fərqli olaraq V.Putinə Allahın salamını da verməyən fiqur axtarırlar Gürcüstan üçün.

Gürcüstanla Qərb arasındakı ”soyuq müharibə” hələ may ayından başlayıb. Xatırlayırsınızsa, may ayında Gürcüstan parlamenti Xarici Agentlər Qanunu kimi tanınan ”Xarici təsirin şəffaflığı haqqında” qanunu təsdiqləyib. Sənədə baxılması kütləvi etirazlarla müşayiət olunub. Parlament seçkiləri ərəfəsində müxalifət koalisiyasına rəhbərlik edən prezident Salome Zurabişvili Konstitusiya Məhkəməsi vasitəsilə qanunun qüvvəsini dayandırmağa cəhd etsə də, məhkəmə bundan imtina edib. Avropa İttifaqı isə buna dərhal reaksiya verib və ilkin olaraq Gürcüstanla vizasız rejimi dayandırıb. Amma Qərbin təzyiqləri bununla bitmədi. Gürcüstana köhnə dostlarından - Qərb ölkələrindən zərbə zərbə dalınca gəlir. Böyük Britaniya Gürcüstanla təhlükəsizlik sahəsində illik dialoqu və müdafiə sahəsi ilə bağlı digər danışıqları dondurub. Bunu Britaniyanın Gürcüstandakı səfiri Garet Uord müsahibəsində deyib. Səfir bildirib ki, bunun səbəbi Tbilisinin ”demokratiya” yolundan geri addım atmasıdır. Yeni London artıq bunu rəsmi şəkildə dilə gətirib. Gürcüstanın Avropa İttifaqına üzvlük prosesi da xarici agentlər haqqında qanununun qəbulundan sonra dayandırılıb. Budur, açıq görünür ki, Qərb dairələri üçün Gürcüstanla münasibətlər dedikdə ilk əvvəl öz istəklərini bu ölkəyə yeritmək başa düşülür.

Amma belə görünür ki, Qərb dairələri Cənubi Qafqazda yeni və qanlı xaos planını işə salmaqda israrlıdırlar. Xüsusilə, Rusiyasız Cənubi Qafqaz siyasəti bölgəni daha acınacaqlı xaosa sürükləyəcək. Belə görünür ki, Qərb Rusiya ilə apardığı nüfuz müharibəsinə Cənubi Qafqazı da sürükləyir.

# Maraqların qarşılaşdığı ölkə, yaxud "REGİONAL MOTEL"




***Ermənistanın tədricən öz subyektivliyini itirdiyi, suveren bir dövlət olmadığı, hətta ermənilərin özlərinin də diqqətindən yayınmır və bunu etiraf da edirlər. Bəzi erməni əsilli siyasətçilər ölkələrinin müstəqil dövlət deyil, getdikcə "regional motel" kimi mövcud olacağı qənaətindədirlər və bu mənada haqlıdırlar da. Hər halda, hadisələrin gedişatını izləyən erməni politoloqlar müvafiq istinadlara əsaslanaraq belə qənaətə gəlirlər və görünən odur ki, həqiqətən də Ermənistan heç də suveren, müstəqil dövlət olaraq, öz siyasətini özü təyin etmir, bəzi ölkələrin maraqlarına xidmət edən, onların maraqlarının qarşılaşdığı məkana çevrilir.***

### Regional müşahidələrdən tutmuş, bölgədə mövqe əldə etməyə qədər işğalçı ölkədən bir məkan kimi istifadə edilir

Bütün dünya ölkələrinin məhz təhlükəsizliyin təminatı ilə bağlı maraqlı olduğu təkzib edilə bilməz və ölkələrin hər zaman təhlükəsizliyin təminatı istiqamətində müvafiq addımlar atmaları məntiqi, eləcə də başadüşüləndir. Məsələ burasındadır ki, Ermənistan kimi kiçik, zəif, çox cılız bir dövlət təhlükəsizliyin təmin edilməsi maraqları naminə ancaq müttəfiqlər tapmağa çalışır. Rəsmi İrəvan hətta elə hesab edir ki, müttəfiqlər nə qədər çox olarsa, bir o qədər yaxşıdır, amma bununla belə daha güclü, daha böyük potensialı olan, söz sahibi hesab edilən bir ölkəni müttəfiq seçmək haylar üçün prioritet hesab olunur. Bu baxımdan Ermənistanın indiyə qədər Rusiyanı müttəfiq kimi qəbul etməsi başadüşülən idi. Qonşu İranla da bu xüsusda münasibətlərdə maraqlı olmaları da anlaşılandır. Lakin hazırkı vəziyyətdə işğalçı ölkə öz münasibətlərinin səviyyəsini strateji müttəfiqlik həddinə çatdırmaq niyyətindədir. Fəqət, yanlış siyasət aparması, aqressiv və iddialı davranması, Qərbin oyuncağına çevrilməsi fonunda istər Rusiya, istərsə də İranla münasibətlərinin həmin o strateji müttəfiqlik həddinə çatdırmaq arzularının puç olduğunu hamıdan yaxşı elə haylar özləri başa düşürlər. Başa düşürlər ki, Rusiya ilə də, İranla da heç əvvəlki münasibətləri belə bərpa edə bilməyəcəklər. Bunu yaxşı başa düşən haylar Qərbə üz tuturlar ki, özlərinə yeni müttəfiq tapsınlar. Bəlkə də amerikalıları, fransızları özlərinə daha yaxın kimi görmək istəyən ermənilər ABŞ və Fransanı müttəfiq kimi, özü də strateji müttəfiq kimi görmək arzusundadırlar. Lakin vəziyyət heç də onların istədikləri və arzuladıqları kimi deyil. ABŞ və Fransa yalnız özünün regional maraqları naminə Ermənistana "yaxınlıq verir" və İrəvana hansısa dəstək də həmin maraqlara görədir. Ümumiyyətlə, Qərb ilk növbədə Cənubi Qafqazda "özünə yer eləmək" üçün Ermənistandan istifadə edir və hansısa ianələr, yardımlar da hayların başlarını tovlamaq üçündür. Görünən odur ki, haylar da yaxşıca tovlanırlar və Qərbin belə ianələrinə görə ölkələrinin suverenliyini, müstəqilliyini qurban verirlər. Qərb indi Ermənistanda öz imkanları üçün yerləşir və regional müşahidələrdən tutmuş, bölgədə mövqe əldə etməyə qədər işğalçı ölkədən bir məkan kimi istifadə edir. Daha dəqiq desək, Qərb üçün indi Ermənistan sadəcə olaraq "regional motel" hesab olunur.

### Hayların Qərbin oyuncağına çevrildiyini, "regional motel" kimi istifadə edildiyini Ermənistanın heç bir qonşusu normal qarşılamır

İndi haylar yaxşı bilirlər ki, 2018-ci ildən başlayaraq Ermənistan sistemli şəkildə Rusiya kimi bir müttəfiqindən məhrum oldu. Bu da təsadüfi şəkildə baş vermədi və səbəbləri də hələ zamanında bəlli idi. Bəlli idi ki, hayların Rusiya kapitallı müəssisələrdə maskalı şoular təşkil etmələri, onların işlərini iflic vəziyyətində qoymaları, Rusiyanın xarici işlər naziri Sergey Lavrovu ələ salmaları, Rusiya prezidenti Vladimir Putini hava limanında qarşılamağa belə getməmələri şimal qonşuları ilə münasibətləri tamamilə korlamağa gətirib çıxarmalıdır və belə də oldu. Kreml üçün Ermənistan tamamilə fərqli bir ölkəyə çevrildi və artıq heç də müttəfiqlik münasibətlərindən danışmaq mümkün deyil. Heç qonşusu İran ilə də hayların münasibətlərinin vəziyyəti Rusiya ilə olduğundan yaxşı deyil. Çünki İran tərəfi də yaxşı bilir və başa düşür, görür ki, haylar nə edirlərsə Qərbin tələbi ilə edirlər. Farslar da ruslar kimi, hayların Qərbin oyuncağına çevrildiyini xoş qarşılamırlar və Ermənistanın bir "regional motel" olaraq istifadə edilməsini işğalçı ölkənin heç bir qonşusu normal qarşılamır.

### Avropalı müşahidəçiləri öz ərazisində yerləşdirmək problemi həll etmək, təhlükəsizliyi təmin etmək demək deyil

Bir çox erməni siyasətçiləri belə etiraf edirlər ki, Ermənistanda avropalı müşahidəçilərin olması heç də müsbət nəticələr vəd etmir və bu addımın çox pis qarşılanması da məntiqidir, doğrudur. Məsələn, erməni əsilli politoloq Edqar Elbakyan "Pressinq" proqramında açıq şəkildə qeyd edir ki, Ermənistanda avropalı müşahidəçilərin olması, yəni İrəvanın Avropdan regionu müşahidə edən "qonaq", yəni, casus çağırıb öz ərazidində yerləşdirməsi münaqişə bölgəsində problemləri həll etmək demək deyil. O, bildirir ki, bununla hansısa təhlükəsizliyin təminatına da nail olmaq olmaz və müşahidəçilərin olması onlara güc tətbiq edilməsinə belə manea sayılmır. Politoloq Elbakyan avropalı müşahidəçilərə işarə edərək, qeyd edir ki, əslində onların missiyası Rusiya Federasiyasının regiondakı hərəkətlərini izləməkdir. Beləliklə də politoloq izah etməyə çalışır ki, Ermənistan avroplı müşahidəçiləri, yəni, casusları dəvət etməklə və yerləşdirməklə, sadəcə olaraq, qonşuları ilə öz münasibətlərini korlamış olur. Həqiqətən də görürük ki, Ermənistan hakimiyyəti, avropalı müşahidəçilərdən və özəl mühafizə şirkətindən tutmuş NATO-ya qədər hər kəsi Ermənistana dəvət edir, lakin bununla belə, eyni zamanda təhlükəsizlik məsələləri də həll olunmamış qalır. Çünki Qərb üçün Ermənistanın maraqları, onun təhlükəsizlik məsələləri heç bir əhəmiyyət kəsb etmir. Əgər işğalçı ölkənin təhlükəsizliyi ilə hansısa ifadələr uydurulursa, yaxud, region ölkələrinə qarşı ara-sıra bəzi ədalətsiz fikirlər səsləndirilirsə, bu da gözdən pərdə asmağın, eləcə də ikili standartların təzahürü kimi təəssürat bağışlayır.

Təhlükəsizliyin təminatı üçün rəsmi İrəvanın hansısa ölkəyə yalvarması, öz ərazisini "regional motel" etməsi nəinki Ermənistanın problemlərini həll etmir, həm də ölkəni subyektivlikdən, suverenliyindən, müstəqilliyindən məhrum edir. Avropalı müşahidəçi adı ilə Avropa casuslarını öz ərazisində yerləşdirən Ermənistan ölkəsini casusluq edənlər üçün məkana çevirir və regionu izləmələrinə şərait yaratmaqla heç də təhlükəsizliyini təmin etmir. Əksinə, avropalı müşahidəçilərin Ermənistanda olması həm region üçün, həm də elə həmin ölkənin özü üçün arzuolunmazdır. Çünki Qərb yekunda öz ambisiyaları naminə elə öz ölkəsini casus məkanına çevirən dövləti də asanlıqla "hədəfə" ala bilər və İrəvan heç də hansısa bir ölkə üçün "yağlı tikə", yaxud toxunulmaz sayılmır. Reallıq bundan ibarətdir ki, öz müşahidəçilərini işğalçı ölkənin ərazilərinə yerləşdirən Qərb getdikcə Ermənistanın da yerinə qərar verir, onun müstəqilliyi, suverenliyi barədə belə düşünmür. Bu isə o deməkdir ki, Ermənistan müstəqil, suveren ölkəyə deyil, "regional motelə" çevrilir.

***İnam Hacıyev***

---



Elçin Bayramlı

## Vergi dərəcələrinin azaldılması iqtisadi inkişafı sürətləndirər

*TƏKLİF*

***Bu yaxında Gürcüstan sadələşmiş vergi dərəcəsini 1 faizə endirdi. Digər vergi dərəcələri də aşağı həddə müəyyənləşdirilib. İqtisadçı ekspertlər bu addımların ölkədə iqtisadi aktivliyi artıracağını qeyd edirlər.***

Vergi sistemində yeni islahatların aparılması iqtisadi inkişafı sürətləndirə bilər. Dünya təcrübəsi göstərir ki, vergilər nə qədər aşağıdırsa, istehsal, xidmət sektoru da o qədər çox inkişaf edir. Nəticədə, ÜDM artır, büdcənin gəlirləri artır, ölkədə bolluq və ucuzluq yaranır, məşğulluq problemi həll olur, dövlətin sosial yükü azalır və s. Yəni, dövlət vergidən itirdiyi hər 1 manatın yerinə 2 manat əldə edir. Ümumilikdə isə iqtisadi aktivlik artır, əhalinin sosial rifahı güclənir.

Azərbaycanda sadələşmiş vergi dərəcəsi 2 faiz müəyyən edilib. Bu dünya üzrə aşağı rəqəmlərdən biridir. Lakin gəlir vergisi və ƏDV üzrə vergi dərəcələrini bir qədər aşağı salmağa ehtiyac var. İndiyədək gəlir vergisi 5 faiz təşkil edirdi, lakin bu ildən etibarən bu 4 dəfə artıb və 20 faiz təşkil edir. Bir çox vətəndaşlar sərfəli olduğuna görə sadələşdirilmiş vergidən gəlir vergisinə keçmişdilər, indi isə məlum olur ki, onların vergi öhdəliyi xeyli artıb. Onlar da isə bu pulu öz məhsul və xidmətlərinin üzərinə qoyacaqlar və nəticədə ölkədə bahalaşma yaranacaq.

Sadələşmiş vergidə əvvəllər paytaxt və regionlar arasında 2 dəfə fərq var idi, sonra isə bu dərəcə bərabərləşdirildi. Halbuki, Bakıdakı bir obyektlə ucqar rayondakı obyektin sövriyyəsi, müştəri sayı, gəliri eyni deyil və burada ən azı 2 dəfə fərq olmalıdır. Hökumət reionlarda sahibkarlığı təşviq etmək üçün aşağı vergi dərəcələri qoymalıdır nəinki paytaxla bərabərləşdirməli.

Bundan başqa, sadələşmiş vergi üzrə dövriyyə limitinin 200 mindən 400 minədək artırılması lazımdır, çünki keçən dövr ərzində manat iki dəfədən çox ucuzlaşıb və əvvəlki 200 min hazırda 100 min manat dəyərindədir.

Orta və iri sahibkarlığı dəstəkləməyə ehtiyac yoxdur, onlar özlərini inkişaf etdirmək üçün müvafiq maliyyə imkanlarına malikdirlər, lakin kiçik sahibkarlıqda bu imkan yoxdur.

Sosial-iqtisadi inkişafına qarşısında ən böyük əngəl də gömrükdür. Gömrükdəki problemlərə son qoyulmalı və korrupsiyanın qarşısı alınmalıdır. Ölkəyə idxal olunan malların gömrükdə malın həqiqi dəyərinin (invoys) 2 qatı səviyyəsində statistik dəyərləndirilməsinə son qoyulmalıdır, çünki 1000 manatlıq malı gömrük 2000 manatlıq kimi qeyd edir, rüsumları da 2 qat artıq almış olur, onsuz da gömrük rusumü az qala 40 faizə çatır ki bu da astronomik dərəcədir.

Vergi də faktiki 1000 manatlıq mala görə 2000 manatlıq malın vergisini tələb edir. Nəticədə həm dövlət statistikasında səhv yaranır, həm də idxalçılar itirdikləri vəsaitləri malın üzərinə qoyub ölkədə süni bahalıq yaranmasına səbəb olurlar. Belə ki, xaricdən 1 manata alınan mal gömrükdən keçərkən 2 manata başa gəlir, vergi, karqo və s. xərclərlə birgə 3 manata çatır, idxalçı da 4 manata satır, pərakəndə satışda isə artıq 5 manat olur. Demək xaricdə 1 manata alınan mal ölkədə azı 5 manata satılmalıdır. Yəni, vergi və gömrük rüsumları bu gün büdcəyə 5 manat artıq qazandırmaqla sabahkı 25 manatın qazanılmasını əngəlləyir. Üstəlik, ölkədə süni bahalıq yaranmasına səbəb olur.

Respublikaya istehsal avadanlıqlarının gətirilməsinə qanunla güzəşt var, amma faktiki olaraq gömrükdən hər hansı bir dəzgahı rüsumsuz keçirmək çox çətindir, qanunun bu tələbinə əməl edilməsi təmin olunsa ölkəyə xeyli istehsal avadanlıqları gətirilər və biz xaricə xammal yox daha çox hazır məhsul, ən azı yarılmfabrikatlar satıb dəfələrlə daha çox qazanarıq.

Görünən odur ki, hökumət bu iqtiqamətdə iş aparır, lakin bu islahatları sürətləndirməyə, tezləşdirməyə ehtiyac var. Bu addımlar atıldıqdan sonra ölkədə sürətli iqtisadi inkişaf başlayacaq, bir nəfər işsiz qalmayacaq, respublikada bolluq və ucuzluq yaranacaq, büdcəmizə də daha çox vəsait daxil olacaq.

# Azad Füzulimiz, ŞƏHƏR GÜNÜN mübarək!

Vətən müharibəsinin 21-ci günü - 2020-ci il oktyabrın 17-si hərb tariximizə Füzuli şəhərinin və ətraf kəndlərin erməni işğalından azad edildiyi gün kimi yazıldı. Dövlətimizin başçısının 2023-cü il iyulun 31-də imzaladığı Sərəncama əsasən, Füzuli şəhərinin işğaldan azad edildiyi 17 oktyabr tarixi Füzuli şəhəri günü kimi qeyd olunur. Dörd il bundan əvvəl tarixin bu günü Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri düşmən tapdağından azad olundu. Azərbaycan Prezidenti İlham Əliyev 17 oktyabr 2020-ci il tarixində xalqa müraciətində "Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir. Son günlər ərzində mən xalqıma xəbər verərək, yeni azad edilmiş kəndlərin adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq hissi ilə, böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib - Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!"- deyə bildirmişdir. Cənab Prezident onu da bildirmişdir ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərinn işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi: "Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi. Füzuli şəhəri deyəndə, əlbəttə, biz hamımız bilməliyik ki, şəhərdən bir şey qalmayıb, əsər-əlamət qalmayıb, bir dənə də salamat bina qalmayıb. Çünki otuz il ərzində o vəhşilərin əlində idi, yırtıcı heyvanların əlində idi, çaqqalların əlində idi. Bütün binalar sökülüb, dini abidələrimiz sökülüb, hər şey talan edilib, evlərin dam örtükləri, pəncərələri, əşyaları, hər şey. Sanki vəhşi bir qəbilə bu şəhəri zəbt etmişdir".



## Prezident İlham Əliyev: "Biz birinci şəhərsalma layihəsini Füzulidə icra edirik"

### "BURAYA GƏLƏN HƏR BİR İNSAN GÖRƏCƏKDİ, ERMƏNİ VƏHŞİLİYİ NƏDƏN İBARƏTDİR"

Əlbəttə ki, Füzuli əməliyyatı Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində cənub-şərq cəbhəsində baş vermiş ən əhəmiyyətli döyüşlərdən biri kimi tarixə düşdü. Bu qələbənin qazanılmasında Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. 1993-cü il 23 avqust tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan Füzulinin 27 illik həsrətinə son qoyuldu. 1988-ci ildən başlayan Ermənistan təcavüzünə qarşı mübarizədə minlərlə füzulili döyüşmüş, yüzlərlə füzulili şəhid olmuş, yaralanmış, itkin düşmüşdür. Füzulinin 1.100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var. Füzuliyə erməni təcavüzü nəticəsində 36.361 nəfər uşaq zərər çəkmiş, onlardan 155 nəfəri yetim qalmışdır. 55 min nəfərə yaxın füzulili öz doğma torpaqlarından qovulmuşdur."Füzulinin timsalında, eyni zamanda, bütün dünya, hətta bunu görmək istəməyənlər görürlər və görməlidirlər ki, erməni vəhşiliyi nədən ibarətdir". Bu fikirləri Prezident İlham Əliyev ötən ilin oktyabrın 17-də "Füzuli Şəhəri Günü"ndə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib. Dövlətimizin başçısı qeyd edib: "Biz uzun illər Qarabağ dərdimizin həqiqətlərini dünya birliyinin diqqətinə çatdırmağa çalışanda bəziləri inanmırdı, elələri də var idi ki, inanmaq istəmirdi. Bizim əlimizdə o qədər də böyük sübutlar yox idi. Biz bilirdik ki, hər şey dağıdılıb, viran qoyulub, ancaq bu dərəcədə hətta biz təsəvvür edə bilmirdik. Çünki işğalçı dövlət heç kimi o vaxt bu bölgəyə buraxmırdı, qadağan etmişdi. Nə üçün? Çünki buraya gələn hər bir insan görəcəkdi, erməni vəhşiliyi nədən ibarətdir. Onun təzahürləri hər yerdə görünür".

### "HƏM FÜZULİDƏ, HƏM BÜTÜN BAŞQA ŞƏHƏR VƏ KƏNDLƏRİMİZDƏ HƏYATA KEÇİRİLƏN LAYİHƏLƏR, DÜNYA MİQYASINDA ŞƏHƏRSALMA PRİNSİPLƏRİNİN YENİ QAYDALARINI TƏSBİT EDİR"

Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərə o cümlədən, Füzuliyə səfərləri tarixi hadisələrlə yadda qalır. Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, Dövlətyarlı kəndində "Ağıllı kənd"in təməlqoyma mərasimi, Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməlqoyma mərasimi və s. Füzulinin tezliklə abadlaşmasına yönəlmiş layihələrdir. Cəmi 9 ay ərzində müasir standartlara cavab verən Beynəlxalq Hava Limanının inşa edilib istifadəyə verilməsi və bu layihənin tam dağıdılmış, heç bir adi infrastrukturu belə olmayan bir ərazidə həyata keçirilməsi Azərbaycan dövlətinin iqtisadi qüdrətinini göstəricisidir. Füzuli Beynəlxalq Hava Limanı, xüsusən bu rayonun Qarabağın və Şərqi Zəngəzurun hava qapısı rolu oynadığını birmənalı surətdə təsbit edir. Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. "Bu gün həm Füzulidə, həm bütün başqa şəhər və kəndlərimizdə həyata keçirilən layihələr, dünya miqyasında şəhərsalma prinsiplərinin yeni qaydalarını təsbit edir və bunu təkcə mən yox, bir çox beynəlxalq ekspertlər qeyd edirlər", - deyə Azərbaycan Prezidenti bildirib: "Beynəlxalq təşkilatlar bunu çox yüksək qiymətləndirirlər, çünki doğrudan da burada yaşayış üçün ən gözəl şərait yaradılıb, həm binaların daxili quruluşu, həm mənzillərin daxili dizaynı, həm mərtəbəlilik prinsipi, binaların bir-birindən aralı olması, məsafə, hər şey gözlənilib. Yəni, rahat yaşamaq üçün bütün infrastruktur, şərait var".

### "FÜZULİYƏ HƏYAT QAYIDIR VƏ QAYIDACAQ"

Bu gün işğaldan azad olunan ərazilərimizdə, eləcə də Füzulidə abadlıq-quruculuq işləri böyük vüsət alıb. Füzuli şəhərinin Baş planı hazırlanıb. Baş planda 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri, rekreasiya və digər təyinatlı zonalar yaradılacaq. Yaşayış ərazilərinin sıxlığının müəyyənləşdirilməsində proqnozlaşdırılan əhali sayı ilə yanaşı, təklif edilən digər şəhər xidmətlərinin yerləşməsi də nəzərə alınıb. Məşğulluğun və sosial xidmətlərin təmini üçün şəhərdə 9 ümumi və orta təhsil müəssisəsi, 13 məktəbəqədər təhsil müəssisəsi, peşə təhsili müəssisəsi, internat tipli musiqi məktəbi, xəstəxana, idman və sağlamlıq mərkəzi, mədəniyyət mərkəzi, inzibati mərkəz, idman kompleksinin inşası, Qələbə və Memorial park, 6 məhəllə parkı və şəhər meydanının, ərazisi 150 hektardan çox olan ekoparkın salınması planlaşdırılıb. Baş planda Füzuli şəhərinin dayanıqlı inkişafı, ağıllı həllər əsasında qurulması və insanların sağlam həyatını təmin etmək üçün ən müasir şəhərsalma yanaşmaları tətbiq edilib.

Bildiyimiz kimi, Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan 960 şagird yerlik Mirzə Uluqbəy adına məktəbin, daha sonra isə Qazaxıstanın hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin istifadəyə verilməsi füzulililər üçün unudulmaz hədiyyə olmaqla yanaşı, ölkələrimizin və xalqlarımızın dostluğunun, qardaşlığının sarsılmazlığının daha bir göstəricisidir. Prezident İlham Əliyevin bildirdiyi kimi, "Füzuliyə həyat qayıdır və qayıdacaq. Əminəm ki, maksimum qısa müddət ərzində Füzuli şəhəri də, rayonun kəndləri də çiçəklənəcək. Biz azad edilmiş ərazilərdə ən müasir texnologiyaları tətbiq edirik. Bu, artıq reallıqdır. Bunu mən müharibə başa çatandan dərhal sonra bəyan etmişdim və bunu bu gün hər kəs görə bilir".

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində keçmiş məcburi köçkünlərin 30 ildən sonra könüllü olaraq, təhlükəsiz şəkildə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Abadlaşan və daha da gözəlləşən Füzuli şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Qeyd edək ki, köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşırlar. Füzuli abadlaşır və yenidən qurulur. Azərbaycan Prezidenti İlham Əliyevin müdrik siyasəti, siyasi iradəsi ilə Füzuli - Şuşa yolunun təməlinin qoyulması və qısa müddətdə müasir tələblər əsasında və keyfiyyətli surətdə istifadəyə verilməsi, o cümlədən Füzuli-Ağdam, Füzuli-Hadrut və digər avtomobil yollarının inşası xüsusi ilə qeyd olunmalıdır.

"Bizim bütün şəhərlərimiz, bax, Füzuli kimi olacaq. Çünki Füzulidə biz birinci şəhərsalma layihəsini icra edirik", - deyə Prezident bildirib. Laçınlıların öz doğma yurduna füzulililərdən bir qədər tez qayıtdıqlarını vurğulayan dövlətimizin başçısı deyib: "Amma Laçın şəhərində ermənilər qanunsuz məskunlaşma apardıqları üçün orada binaların bəziləri qalmışdı və biz o evləri sadəcə olaraq bərpa etdik, ən gözəl şərait yaratdıq. Deməli, Laçının əvvəlki şəhərsalma mənzərəsi yerindədir. Burada isə şəhər tamamilə yenidən qurulur".

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha böyük zirvələr fəth edəcəkdir. Bütün sahələr üzrə hərtərəfli inkişaf etmiş, güclü iqtisadiyyata sahib müstəqil Azərbaycan olacaq. Bu gün Azərbaycan qalib dövlətdir. Xalq-iqtidar birliyi bizi zəfərə, qələbədən-qələbəyə aparır. Prezident İlham Əliyev xalqımızın həyatında böyük dəyişikliklər yaradan tarixi vəzifələrin həyata keçirilməsi yükünü və məsuliyyətini daşıyaraq milli maraqları ifadə edən siyasət həyata keçirir. İşğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Bu gün işğaldan azad olunan ərazilərimizdə, eləcə də Füzulidə abadlıq-quruculuq işləri böyük vüsət alıb. Füzuli qaynar dövrünü yaşayır.

*Zümrüd BAYRAMOVA*

# "91-lər"-in tarixi missiyası Azərbaycanın xilası oldu

***1990-cı illərin əvvəlində respublikada vəziyyətin olduqca ağır idi-Azərbaycanda ictimai-siyasi proseslər idarəolunmaz forma alırdı. Hakimiyyətdə olan insanlar isə sanki xalqın maraqlarını unutmuşdular. Onların nəyə xidmət etdiklərini anlamaq mümkün deyildi. Xalqın müqəddəratı, istəyi, vətənin təhlükəsizliyi onları maraqlandırmırdı. Həmin dövrdə xalq ağır vəziyyətə düşmüşdü və ən başlıcası mənəvi cəhətdən sarsılmışdı.***



Hakimiyyətə qarşı ümumxalq narazılığı yaranmışdı və insanlar mitinqlər, etiraz aksiyaları keçirməklə hakimiyyətə etirazlarını bildirirdilər. Ümumxalq narazılığı fonunda 1992-ci ildə respublikada hakimiyyətə gələn AXC-Müsavat cütlüyü dağıdıcı proseslərin qarşısını nəinki almadı, əksinə hərc-mərclik daha da artdı, Ermənistanın hərbi təcavüzü daha da sürətləndi. Çox qısa zamanda xalq AXC-Müsavat hakimiyyətinin idarəçiliyi bacarmadığının şahidi oldu. Bu hakimiyyətin faciəsi onda idi ki, bacarıqlı, peşəkar insanları da vəzifədən kənarlaşdırırdı. Beləliklə, o vaxtkı hakimiyyətin yarıtmaz siyasəti nəticəsində ölkə uçuruma doğru sürüklənirdi, Azərbaycan məhv olmaq təhlükəsi ilə üzüzə qalmışdı.

Ölkədə ümumi vəziyyətin nə qədər təhlükəli olduğunu cəmiyyətin sağlam qüvvələri, ziyalılar yaxşı dərk edirdilər. Bu insanlar anlayırdı ki, Azərbaycanı belə bir ağır vəziyyətdən xalqımızın ləyaqətli oğlu Heydər Əliyev kimi böyük dövlət xadimi, bütün dünyada tanınmış bir şəxsiyyət xilas edə bilər. Amma o zamankı hakimiyyət Ümummilli Lider Heydər Əliyevin təcrübəsindən nəinki bəhrələnmək istəmirdi, əksinə ona qarşı əsassız mübarizə aparırdılar. Bütün bunlara rəğmən tanınmış ziyalılar Heydər Əliyevin hakimiyyətə qayıdışını olduqca zəruri hesab edirdilər. Respublikanın bütün əhalisi Ulu Öndərin hakimiyyətə gəlməsini istəyirdi. Amma hakimiyyət hər vəchlə buna mane olurdu. Yaş senzini ortaya atmışdılar ki, Heydər Əliyev seçkilərdə iştirak edə bilməsin.

## "91-lər" çox mühüm missiyanı həyata keçirdi

Belə olan təqdirdə, cəmiyyətin öndə gedən bir qrup ziyalısı 16 oktyabr 1992-ci ildə "Səs" qəzeti vasitəsilə Ulu Öndər Heydər Əliyevə müraciət etdi. "91-lər"-in fəaliyyəti kimi tariximizə düşən bu hadisə çox önəmlidir. Çünki bu ziyalılar görürdülər ki, ölkədə separatçılıq baş alıb gedir, qanunsuz silahlı dəstələr insanlar üçün böyük təhlükəyə çevrilir, əhalinin həyat səviyyəsi də sürətlə aşağı düşür. Yəni, sözün əsl mənasında Vətən əldən gedirdi. Belə bir şəraitdə 91 ziyalı Heydər Əliyevə yeni bir partiyanın yaradılması və həmin partiyaya rəhbərlik etməsi ilə bağlı müraciət etdi. Partiyanın yaradılmasında məqsəd demokratik yolla hakimiyyətə gəlib vətəni xilas etmək idi. Bütün Azərbaycan xalqı gördü ki, Heydər Əliyev Naxçıvanı məhv olmaqdan xilas etdi. Blokada şəraitində olan bir bölgədə insanlarla Heydər Əliyevin birliyi bütün çətinliklərə sinə gərdi. Bütövlükdə bütün xalqımız Heydər Əliyevi çox sevirdi. Çünki Ulu Öndərimiz bütün həyatı boyu xalqına şərəflə xidmət etmişdi. Beləliklə, o dövrdə "91-lər" çox mühüm missiyanı həyata keçirdi.

Azərbaycanın xilası üçün xalqın ziyalı nümayəndələri Ümummilli Liderimizi tək çıxış yolu olaraq görürdülər. Çünki ona inanır və böyük ümid bəsləyirdilər. Onun birinci dəfə Azərbaycanda hakimiyyətdə olduğu dövrdə gördüyü işlər, dövlətimizin başçısının da vurğuladığı kimi, həmin dövrdə Qarabağda separatist qüvvələrin baş qaldıra bilməməsi bu inamı daha da möhkəmlətmişdi. Dövlət başçısının dediyi kimi: Heydər Əliyevə cəmiyyətdə inam çox yüksək səviyyədə idi. Bu inamın əsas səbəbləri o idi ki, Azərbaycanda işlədiyi dövrdə o həmişə xalqa xidmət edirdi, həmişə xalqın qayğıları ilə yaşayırdı, həmişə xalqla birlikdə idi, bir yerdə idi. Məhz onun rəhbərliyi altında Azərbaycan 1970-80-ci illərin əvvəllərində sovet məkanında ən geridə qalmış respublikadan ən qabaqcıl respublikaların birinə çevrilmişdir və bütün statistik göstəricilər bunu təsdiqləyir. Eyni zamanda, Azərbaycanda yaşayan vətəndaşların həyat səviyyəsi ildən-ilə yaxşılaşırdı, xüsusilə kənd təsərrüfatı ilə məşğul olan insanlar öz həyatını yenidən qura bilmişdilər. Xalqımızın Heydər Əliyevə inamı, yenə də deyirəm, misilsiz idi. Xüsusilə xalqımızın 1980-ci illərdə üzləşdiyi faciə bir daha göstərirdi ki, xalqımız yalnız Heydər Əliyevi rəhbər vəzifədə görmək istəyir.

Dövlət başçısı ötən 30 ilin tarixini çox ətraflı, bütün hadisələri xronoloji ardıcıllıqla şərh etməklə böyük bir tarixdən söhbət açır, Ulu Öndərimizin qətiyyətini, iradə və bacarığını tarixi faktlarla göstərirdi: ... Heydər Əliyev bütün vəzifələrdən istefa verəndən iki həftə keçməmiş erməni separatçıları artıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşməsi ilə bağlı məsələ qaldırmışdılar. Yəni, bu amillər göstərir ki, Ulu Öndər pensiyada olanda da, xalqımız üçün ən faciəvi günlərdə də xalqla birlikdə idi. 20 Yanvar faciəsinin ertəsi günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək sovet hökumətini, Kommunist Partiyasını - uzun illər xidmət etdiyi partiyanı ittiham etmişdir, bu dəhşətli cinayəti qınamışdır. Bütün bunlar və eyni zamanda, Naxçıvanda çalışdığı dövrdə müstəqilliyə doğru atılan addımlar, o cümlədən Azərbaycan Demokratik Respublikasının Dövlət Bayrağının Naxçıvanda rəsmi bayraq kimi təsis edilməsi və digər addımlar, həmçinin Naxçıvanın erməni işğalından qorunması xalqın ona inamını daha da artırırdı və bütün bu amillər nəticədə xalqımızın müdrikliyinə əsaslanaraq gələcəkdə Azərbaycanı böyük bəlalardan qurtara bilmişdir.



СӘС

... ОКТЈАБР 1992-чи ИЛ. № 43 (73) «ӘЛИНЧӘ» ХЕЈРИЈЈӘ ҸӘМИЈЈӘТИНИН ГӘЗЕТИ ГИЈМӘТИ 3 РУБЛ

АЗӘРБАЈҸАН СИЗИН СӨЗҮНҮЗҮ КӨЗЛӘЈИР

(ҺЕЈДӘР ӘЛИЈЕВӘ МҮРАҸИӘТ)

## Yeni Azərbaycan Partiyası: zamanın tələbi

Ölkəmizin ictimai-siyasi həyatında mühüm əhəmiyyət kəsb edən Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi münasibətilə keçirilən tədbirdə dövlətimizin başçısı çıxışında əvvəldən sonadək Heydər Əliyev siyasi xətti, ideyaları, yolu ilə getməklə əldə olunan uğurlardan bəhs etməsi ilə ötən illərin şanlı tarixinin səhifələri yenidən bir-bir vərəqləndi.

Ümummilli Liderimizin Azərbaycana, xalqımıza, onun müstəqilliyinə bəslədiyi məhəbbət fonunda ərazi bütövlüyümüzün bərpası, ölkəmizin inkişafı üçün həyata keçirdiyi misilsiz xidmətlər bu gün öz bəhrəsini verib. Bunu hər bir vətəndaş görür və qürur duyur. Partiyanın yaranması tarixinə nəzər salan dövlət başçısının çıxışında da bu məqamlar öz əksini tapdı: Partiyamızın yaranması tarixi hadisə idi. O vaxt gənc Azərbaycan Respublikası çətin günlər yaşayırdı. Müstəqilliyimizin cəmi bir yaşı var idi və müstəqilliyimizin birinci ili çox ağır keçmişdir, bəzi hallarda xalqımız böyük faciələrlə üzləşmişdir. Belə bir vəziyyətdə Azərbaycanın görkəmli nümayəndələri, vətənpərvər insanlar, ölkənin gələcəyini düşünən insanlar ölkəmizin nicat yolunu Heydər Əliyevin simasında gördülər və məhz buna görə Ulu Öndərə müraciət ünvanlamışdılar. Bu müraciəti ünvanlayan məşhur "91-lər" öz tarixi missiyasını şərəflə yerinə yetirdilər. Çünki məhz bu müraciət əsasında, bu müraciətə cavab olaraq Yeni Azərbaycan Partiyasının təsis konfransı Naxçıvanda keçirilmişdir. Təsis konfransında ölkəmizin bütün bölgələrindən 500-dən çox nümayəndə iştirak edirdi və onların tarixi qərarları ölkəmizin yeni səhifəsinin açılmasına gətirib çıxardı.

Yeni Azərbaycan Partiyasının Naxçıvanda keçirilmiş birinci təsis konfransını tarixi hadisə adlandıran dövlətimizin başçısı deyirdi: Ulu Öndərin sədrliyi ilə keçirilmiş bu konfransdan sonra ölkəmizdə yeni siyasi qüvvə yaranmışdır.

Yeni Azərbaycan Partiyası yaranarkən müxalifət partiyası kimi yaranmışdır və dövlətin ağır problemlərinin, yükünün bir hissəsini öz üzərinə götürmək böyük məsuliyyət tələb edən addım idi. Çünki o vaxt, bir daha demək istəyirəm, ölkədə gedən proseslər çox narahatedici idi və Azərbaycanın görkəmli nümayəndələrinin məhz Heydər Əliyevə müraciət etməsi bu zərurətdən doğurdu. Çünki ölkə artıq idarəolunmaz vəziyyətə düşmüşdü, bir il ərzində dövlətçiliyin əsasları qoyulmamışdı, demokratik inkişaf ləng gedirdi, əslində, geriyə addımlar atılırdı. Biz təkcə senzuranın tətbiq edilməsini yada salsaq, demək kifayətdir ki, o vaxt demokratik mühitdən söhbət gedə bilməzdi. Yeni Azərbaycan Partiyasının təsis konfransının məhz Naxçıvanda keçirilməsi də buna bağlı idi. O vaxt Bakıda bu konfransın keçirilməsinə icazə verilməmişdi. Yəni, demokratik dəyərlər elan olunsa da, Azərbaycan xalqı faktiki olaraq həyatda bunun əksini görürdü. Media azadlığı yox idi, iqtisadiyyat çox ağır vəziyyətdə idi, insanların sosial vəziyyəti gündən-günə ağırlaşırdı, yoxsulluq təxminən 90 faizə çatmışdı, sənaye istehsalı iflic vəziyyətdə idi. Bizim sənayemizin aparıcı sahəsi olan neft-qaz sənayesi də böyük tənəzzülə uğramışdı və faktiki olaraq ölkəmizdə elektrik enerjisi böhranı hökm sürürdü. Nizami ordu yaradılmamışdı, inflyasiya ikirəqəmlidən üçrəqəmliyə keçirdi. Yəni, budur 1992-ci ilin noyabr ayında ölkəmizdə yaranmış vəziyyət.

YAP-ın təsis konfransından yeddi ay keçəndən sonra Heydər Əliyevin xalqın tələbi ilə Bakıya dəvət edilməsi, parlamentin sədri seçilməsi, 11 ay keçəndən sonra - oktyabr ayında isə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə tariximizin o qara səhifəsi bağlanmışdır. Və biz bağlanan o qara səhifədən sonra başlanan tariximizin parlaq səhifələri ilə bu gün fəxr edir, qürur duyuruq.

## Tarixin 1993-cü ildən açılan yeni səhifəsi

Bəli, 1993-cü ildən yuxarıda da vurğuladığımız kimi, tarixin qara səhifələri bağlandı və qarşımızda yeni bir səhifə açıldı. Bu səhifə Böyük Heydər Əliyevin dəst-xətti ilə yazılmağa başlandı. Elə bir səhifə ki, acıması ilə xalqın taleyini dəyişdi.

Ulu Öndərin mənəvi və siyasi varisi, daim Heydər Əliyev siyasətindən bəhrələnən və fəaliyyətini bu dahi insanın təcrübələrinə istinad etməklə quran dövlət başçısı cənab İlham Əliyev deyir: Biz Ulu Öndərin rəhbərliyi ilə çox ciddi iqtisadi islahatlara start verdik. İqtisadiyyatın bazar iqtisadiyyatı prinsipləri əsasında qurulması məhz o illərdə öz əksini tapmışdır. Azərbaycanın gələcəkdə dünyəvi dövlət kimi inkişafı məhz o illərdə təsbit edilmişdir. Bizim xarici siyasətimizlə milli maraqlar üzərində apardığımız işlər məhz o illərdə xalqa təqdim edilmiş və xalq tərəfindən dəstəklənmişdir. Bir çox başqa sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində atılan addımlar bir neçə ildən sonra imkan verdi ki, biz doğrudan da güclü və nizami ordu yaradaq. Bu gün bütün Azərbaycan xalqı Ordumuzla fəxr edir. Yəni, bu tarixi addımlar ölkəmizin uzunmüddətli strateji inkişaf modelini özündə ehtiva edirdi. Əlbəttə ki, bütün planlarımızı həyata keçirmək üçün bizim güclü maliyyə imkanlarımız olmalı idi. Yaxşı başa düşürdük ki, xarici sərmayələr gəlmədən buna nail olmaq mümkün deyil. Xarici sərmayələrin ölkəyə qoyulması üçün də ilk növbədə sabitlik olmalı idi və bu sabitlik yaradıldı. O ölkədə ki, 1991-1993-cü illərdə Azərbaycan xalqı faktiki olaraq sabitlik nədir bilmirdi. Qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakı və digər şəhərlərin küçələrində əli avtomatlı insanlar faktiki olaraq hökmranlıq edirdi, kütləvi itaətsizlik hökm sürürdü. Belə bir vəziyyətdə sabitliyi yaratmaq ancaq Heydər Əliyevin nüfuzu, onun cəsarəti və xalqın ona olan inamı hesabına mümkün idi və xarici sərmayələr də ondan sonra dərhal gəlməyə başlamışdır. Məşhur "Əsrin kontraktı" və neft-qaz sahəsində ondan sonra aparılan işlər o vaxt güclü maliyyə zəmini yaratdı. O vaxt atılan addımlar və qəbul edilmiş qərarlar bu gün bizə imkan verir ki, müstəqil iqtisadi siyasət aparaq və beynəlxalq müstəvidə müstəqil ölkə kimi özümüzü təsdiqləyək.



Bəli, ötən 21 ilin hər saatında, hər anında Ulu Öndərimizin tapşırıq və tövsiyələrinin yerinə yetirildiyi görürük. Həm də çox yüksək səviyyədə. Bu tövsiyələrin yerinə yetirilməsində bütün cəmiyyətimizin səfərbər olduğunu da görmək mümkün olub. Çünki Ulu Öndər Azərbaycan üçün nə qədər əzizdirsə, onun tapşırıq və tövsiyələrinin bu xalqın nümayəndələri tərəfindən yerinə yetirilməsi bir o qədər qürurvericidir. Biz bütün işlərdə həmişə dövlətimizin başçısının arxasında olmuşuq.

Prezident cənab İlham Əliyev Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi münasibətilə keçirilən tədbirdə bu barədə deyirdi: Yəni, 1993-2003-cü illərdə dövlətçiliyimizin çox möhkəm əsasları qoyuldu. Bu illəri sabitlik və inkişaf illəri kimi xarakterizə etmək olar. Əsas məsələ odur ki, bu siyasət davam etdirilməli idi. Azərbaycan xalqı 2003-cü ildə bir daha müdriklik göstərərək, məhz Ulu Öndərin şəxsiyyətinə olan hörməti ifadə edərək Heydər Əliyev siyasətinə səs verdi. Mən 2003-cü ildə xalqa söz vermişdim ki, bu yoldan dönməyəcəyəm. Son 19 ilin hadisələri onu göstərir ki, belə də oldu, Ulu Öndərin bütün tapşırıqları, bütün tövsiyələri yerinə yetirildi. O, öz siyasi vəsiyyətində demişdir ki, bir çox işlər görüldü, ancaq görə bilmədiyimiz işləri mənim davamçılarım görəcək, belə də oldu. Biz onun siyasi xəttini davam və inkişaf etdirərək güclü Azərbaycan dövləti qurduq ki, sözün əsl mənasında, hər bir azərbaycanlı bu dövlətlə, doğma dövlətimizlə fəxr edir. Biz iqtisadi islahatları dərinləşdirdik və son 19 ildə bu sahədə görülən işlər göz qabağındadır. Təkcə onu demək kifayətdir ki, 2003-cü ildən bu günə qədər bizim iqtisadiyyatımız 3 dəfədən çox artmışdır. Bu il iqtisadiyyatımız rekord həddə çatacaq. İlin sonuna qədər gözlənilən proqnoz onu deyir ki, iqtisadiyyatımız 130 milyard manata çatacaq. Bu, rekord göstəricidir. Bizim uğurlu iqtisadi-maliyyə siyasətimiz nəticəsində xarici dövlət borcumuzu əhəmiyyətli dərəcədə aşağı sala bilmişik. Bu da həm bu gün üçün, həm gələcək nəsillər üçün böyük üstünlük təşkil edir. Bu gün ona görə ki, bizim kredit reytinqimiz yaxşılaşır. Gələcək nəsillər üçün ona görə ki, bu yük gələcək nəsillərin üzərinə düşməyəcək. Bir neçə il bundan əvvəl mənim göstərişimlə aparılan islahatlar nəticəsində bu ilin sonuna biz xarici borcumuzun ümumi daxili məhsuldakı payını 10 faizə qədər endirəcəyik. Əgər valyuta ehtiyatlarımızı götürsək, bizim valyuta ehtiyatlarımız xarici borcdan 8 dəfə çoxdur. Yəni, ancaq nadir ölkələr bu göstəricilərlə fəxr edə bilər.

## Azərbaycan dövləti Ulu Öndərin vəsiyyəti əsasında milli-mənəvi dəyərlər üzərində qurulur, inkişaf edir

Azərbaycan xalqının özünəməxsus milli dəyərləri vardır ki, bu xalq hansı dövrdən, çətinliklərdən, müharibələrdən, ağrı-acılardan keçməsinə baxmayaraq həmin dəyərlərə sadiq qalmış, onları qoruya-qoruya nəsillərdən-nəsillərə təhvil vermişdir. Onlardan biri də xalqın birliyi, həmrəyliyidir ki, 44 günlük Vətən müharibəsində də bunun şahidi olduq. Ulu Öndərimiz də bu dəyərlərin hər zaman qorunmalı olduğunu tövsiyə edirdi.

Prezident cənab İlham Əliyev: Azərbaycan dövləti Ulu Öndərin bizə etdiyi vəsiyyət əsasında milli-mənəvi dəyərlər üzərində qurulur, inkişaf edir. Azərbaycan dəyərləri bizim üçün əsas dəyərlərdir. Biz hamımız bunun şahidiyik ki, gənc nəsil də milli ruhda böyüyür, gənc nəsil milli ənənələrə sadiqdir, azərbaycançılıq ideyalarına sadiqdir. Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayır, bu da Ulu Öndərin siyasəti idi. Biz bu siyasəti uğurla davam etdirərək, zənginləşdirərək bu gün Azərbaycanda, hesab edirəm ki, dünya miqyasında nadir və təkrarolunmaz mühit yaratdıq. İkinci Qarabağ müharibəsi bunu bir daha göstərdi. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələrinin hamısı bir nəfər kimi ölümə getməyə hazır idi, ölümə gedirdi, azad edilmiş torpaqlarda bayrağımızı qaldırırdı. Bu, bizim böyük üstünlüyümüzdür. Bu istiqamətdə həm ölkə daxilində, həm beynəlxalq müstəvidə bu gün Azərbaycan nümunəvi davranış göstərir. Əsas məsələ odur ki, bütün Azərbaycan xalqı tərəfindən, Azərbaycanda yaşayan bütün etnik qruplar tərəfindən bu siyasət dəstəklənir. Bu, bizim gücümüzü artırır və bundan sonra gələcək nəsillər də məhz belə yaşamalıdır, əminəm ki, belə yaşayacaqlar.

## Güclü ordu quruculuğu Ulu Öndərin vəsiyyəti idi

Bu, tarixi faktdır ki, 90-cı illərin əvvəllərində ordumuz yox dərəcəsində idi. Yəni ordu quruculuğu işini həmin dövrdə gündəmə gətirən də yox idi. Çünki ovaxtki dövlət rəhbərlərinin başı öz vəzifə kürsülərini qoruyub saxlamağa qarışmışdı. Onlar ordu barədə nə üçün düşünməli idilər ki? Öz əlləri ilə düşmənə satdıqları torpaqları qorumaq üçünmü? Bu iki hal bir-biri ilə ziddiyyət təşkil etdiyinə görə bu barədə danışmağa da əsla dəyməz.

Lakin həmin dövrdə Naxçıvanda yaşayan və fəaliyyət göstərən dahi şəxsiyyət Heydər Əliyev üçrəngli dövlət bayrağımızın qaldırılması, dövlət rəmzlərimizin tanınması kimi, artıq orada ordu quruculuğuna da başlamışdı. Azərbaycan Milli Ordusunun təməli Ulu Öndər tərəfindən qoyulmuşdu. Sonrakı illərdə bu sahədə həyata keçirilən bir-birindən əhəmiyyətli işlər bugünkü güclü ordumuzun yaradılması ilə nəticələndi.

Bu barədə dövlətimizin başçısı deyir: Güclü ordu quruculuğu. Bu da Ulu Öndərin bizə olan vəsiyyəti idi. Bu gün Azərbaycan Ordusu artıq özünü təsdiqləyib, cəmi 44 gün ərzində düşməni tarixi torpaqlarımızdan qovub, tarixi ədaləti bərpa edib, xalqımızın qürurunu bərpa edib və bu gün Azərbaycan dövlətinin təhlükəsizliyinin qarantıdır. Biz ordu quruculuğuna həmişə çox böyük diqqət göstərmişik. Bəzi işlər ictimai diqqətə də təqdim edilirdi, bəzi işləri biz daha çox konfidensial, yəni, məxfi şəraitdə aparırdıq, bu da başadüşüləndir. Amma nəticə etibarilə elə bir qəhrəmanlıq, elə bir peşəkarlıq göstərdik ki, bu, bu gün bir çoxları üçün nümunədir.

## Başa çatdıra bilmədiyimiz işləri davamçılarımız başa çatdıracaq

Bu barədə Prezident İlham Əliyevin dəyərli və yaddaqalan, bütün nəsillərə nümunə olan dəyərli fikirlərini dinləmək kifayətdir: Heydər Əliyev öz siyasi vəsiyyətində bir şey də demişdir. Artıq bunu dəfələrlə demişəm, Azərbaycan xalqı da bilir ki, başa çatdıra bilmədiyimiz işləri davamçılarımız başa çatdıracaq. Onların arasında yaşın ki, mən belə hesab edirəm, ilk növbədə, Qarabağ probleminin həllini nəzərdə tuturdu. Biz, onun davamçıları bu problemi bütün işlərimizin mərkəzinə qoyduq. Yəni, hər bir addım, hər bir təşəbbüs, hər bir sərmayə, hər bir beynəlxalq təmas bu məqsədi güdürdü ki, bu, bizi müqəddəs hədəfimizə yaxınlaşdırır, yoxsa uzaqlaşdırır?! Ona görə bütün işlərimizin mahiyyəti məhz bu idi - Qarabağı azad etmək, tarixi ədaləti bərpa etmək. Biz bu hədəfə doğru gedirdik. Bizim yolumuz çox çəkdi. Ancaq elə gedib, elə nöqtə vurmalı idik ki, bu, birdəfəlik olsun. Biz avantüraya heç vaxt gedə bilməzdik. Biz səhv addım, yaxud da ki, vaxtsız addım ata bilməzdik. Biz hər şeyi ölçüb-biçib öz gücümüzü, eyni zamanda, digər amilləri nəzərə alaraq ən düzgün vaxt seçməli idik, ən düzgün vaxt üçün ən yaxşı vəziyyətdə olmalı idik. Xalqımız Ordumuzla tam birləşdi. Ona görə biz hamımız deyirik ki, bu, ümumxalq Qələbəsidir. Çünki xalq-iqtidar bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində biz istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. 8 noyabr 2020-ci il hamımızın yaddaşında əbədi qalacaq, o cümlədən mənim. O vaxt Ulu Öndərin məzarını ziyarət etdim, ondan sonra şəhidlərin qəbrini ziyarət etdim. Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşa müjdəsini verdim. Ulu Öndərin məzarı önündə özümə dedim ki, bu vəsiyyət də, bu sonuncu vəsiyyət də yerinə yetirildi.

## Ulu Öndərin həyatı, fəaliyyəti bir fədakarlıq nümunəsi idi

Bəli, bütün həyatını, sağlamlığını xalqının xoşbəxtliyinə, müstəqilliyimizin əbədiliyinə, torpaqlarımızın azadlığına həsr edən böyük Heydər Əliyevin həyatı da, fəaliyyəti də bir fədakarlıq nümunəsi idi.

Yaxşı yadımdadır, 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində torpaqlarımızı satanlar isti otaqlarında boş-boş işlərlə məşğul olduqları zaman Ulu Öndərimiz qazsız, işıqsız Naxçıvanda buz kimi evdə yaşayır, Azərbaycanın gələcəyi üçün böyük əhəmiyyətə malik olan sənədlərə qaranlıq, soyuq iş otağında imza atırdı. Saatlarla o soyuq otaqda bu xalqın qurtuluşu üçün yollar axtarıb tapırdı. Minilliklər boyu bir xalqın taleyində belə şəxsiyyətlər çox az halda olur. Biz çox xoşbəxt xalqıq ki, Ulu Öndər bizim tale payımız, alın yazımız olub. Biz bugünkü müasir, müstəqil Azərbaycan üçün Ulu Öndərimizə, onun ölməz ideyalarına borcluyuq. Dövlətimizin başçısının söylədiyi kimi: Ulu Öndərin həyatı, fəaliyyəti bir fədakarlıq nümunəsi idi. O, hətta özü üçün ən çətin dövrlərdə, artıq son illərdə fiziki sağlamlığı əvvəlki kimi olmadığı dövrdə də hər zaman hər birimizə nümunə göstərirdi. Hər birimiz, o cümlədən mən onun sağlığında da və yoxluğunda da onun kriteriyalarına uyğun hərəkət etməyə çalışırıq. Bu gün bizi qabağa aparan məhz budur - onun xatirəsinə hədsiz hörmət və onun mirasına olan münasibət. Onun mirası da bu gün müstəqil Azərbaycandır. Sonda yenə də dövlətimizin başçısı, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin dəyərli fikirlərini söyləmək istəyirəm: Biz onun siyasi xəttini davam və inkişaf etdirərək güclü Azərbaycan dövləti qurduq ki, sözün əsl mənasında, hər bir azərbaycanlı bu dövlətlə, doğma dövlətimizlə fəxr edir. Bəli, Azərbaycan xalqı bu dövlətlə də, liderləri ilə də fəxr edir!

***Mətanət Məmmədova***

# Həyat və sağlamlıq üçün ciddi təhlükə: mina terroru

*Qarabağ və Şərqi Zəngəzurda 1 milyon 167 hektara yaxın təhlükəli sahə*

44 günlük Vətən müharibəsində Azərbaycan döyüş meydanında qazandığı Zəfər nəticəsində işğalçıları "iti qovan kimi" torpaqlarımızdan qovaraq məğlub etdi. Artıq Azərbaycan işğaldan azad olunan torpaqların abadlıq-qurucuqluq işlərinə başlayıb. Həyata keçirilən layihələr bu ərazilərin dirçəlməsinə səbəb olur. Azərbaycan Prezidenti İlham Əliyev müsahibələrini birində bildirdiyi kimi, "Biz çox böyük sürət götürmüşük və əsas məqsədimiz keçmiş qaçqınları və köçkünləri tezliklə öz yurdlarına qaytarmaqdır, onlar həddsiz çox gözləyiblər. Mən bu barədə demişəm, bir daha demək istəyirəm ki, bizim əsas maneəmiz, əsas rəqibimiz zamandır". Təbii ki, qısa bir zaman məsafəsində bütün əərazilərin tam abadlaşması bir qədər çətindir. Belə ki, erməni təcavüzkarları işğal altında olan ərazilərimizi darmadağın edərək xarabazarlıqlara çeviriblər. Azərbaycan Prezidenti İlham Əliyevin söylədiyi fikirləri xatırlatmaq yerinə düşər. "Mən Bakıdan Füzuliyə, Cəbrayıla, Zəngilana, Qubadlıya, Laçına qədər və digər istiqamətdə Kəlbəcər və Laçın tərəfdən yüzlərlə kilometr yol qət etmişəm, orada hər şey dağıdılıb", - deyən Prezident qeyd edib ki, dağıntıların miqyası elədir ki, insan, sadəcə, mat qalır: "Axı, bu ərazi sahəsinə görə Livana bərabərdir. Təsəvvür edin, dünyada heç də ən kiçik olmayan bir ölkənin Livanın ərazisinə bərabər ərazini tikmək, abadlaşdırmaq lazım gələcək. Bunu, sadəcə, təsəvvür etmək üçün dedim. Orada heç nə yoxdur, nə yol var, nə işıq, nə qaz, nə su. Heç nə. Tamamilə heç nə". Bəli, belə bir vəziyyətdə olan torpaqlarımıza qovuşduq.

Bu gün həmin ərazilərdə genişmiqyaslı layihələr icra olunur. Bir sıra magistral avtomobil yolları, dini-tarixi abidələr, infrastruktur layihələri icra olunub və bu davamlı həyata keçirilir. Yollar, elektrik xətləri, su xətləri, hava limanları, dəmir yolları salınır. Əlbəttə ki, bu gün işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi də əsas məsələlər sırasındadır. Bildiyimiz kimi, Ermənistan Ağdam, Füzuli və Zəngilan rayonlarında basdırdığı tank və piyada əleyhinə minaya dair xəritələrini Azərbaycana təhvil verib. Bu Azərbaycan Prezidentinin həyata keçirdiyi uzaqgörən siyasətinin məntiqi nəticəsi idi. İlk olaraq Ağdamda, daha sonra isə Füzuli və Zəngilanda basdırılmış minaların xəritələrinin Ermənistandan alınması on minlərlə vətəndaşın, o cümlədən, minatəmizləyənlərin həyatının təhlükədən xilası deməkdir. Minaların təmizlənməsi maliyyə itkisi ilə yanaşı, vaxt itkisinə də səbəb olur. Ermənistanın basdırdığı minalar mülki əhalinin təhlükəsizliyi, sağlamlığı və həyatı üçün ciddi təhlükə törədir və ya azad edilmiş ərazilərdə sosial-iqtisadi inkişafa mane olur. İkinci Qarabağ müharibəsi başa çatandan bu günə qədər 350 nəfər vətəndaşımız mina qurbanı olub, onlardan 65-i həlak olub, 285-i ağır yaralanıb. Ümumilikdə, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3429-a yaxın vətəndaşımız minalardan zərər çəkib, onlardan 595-i həyatını itirib. Mina qurbanlarının 357-si uşaq, 38-i isə qadınlar təşkil edir. Əlbəttə ki, bu xəritələri verilməsi işğaldan azad edilmiş ərazilərdə tikinti və yenidənqurma layihələrini tez bir zamanda reallaşmasına səbəb olar.











## 166 MİN HEKTARDA, ÜMUMİ ƏRAZİLƏRİN 14,2 FAİZİNDƏ TƏMİZLƏMƏ APARILIB

İşğaldan azad edilmiş ərazilərdə hazırda 1 milyon 167 hektara yaxın təhlükəli sahə var. İşğaldan azad edilmiş ərazilərdə elə bir yer yoxdur ki, minatəmizləyənlər orada mina olmadığını və çirklənmədiyini əminliklə söyləsinlər. Bu günə qədər 166 min hektarda, ümumi ərazilərin 14,2 faizində təmizləmə aparılıb. Dörd il əldə olunan bu faiz göstəricisi prosesin hələ çox davam edəcəyini deməyə əsas verir.

Azərbaycan Ermənistan tərəfindən ərazilərimizin 30 ilə yaxın davam edən hərbi işğalı zamanı, habelə hazırkı postmünaqişə dövründə mina təhdidindən əziyyət çəkən, çoxsaylı mina qurbanları verib. Ermənistan tərəfindən hətta postmünaqişə dövründə belə davam etdirilən mina təhdidi bölgədə aparılan bərpa və yenidənqurma işlərini, keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıdışı prosesini ləngitməklə yanaşı, vətəndaşlarımızın həyat və sağlamlıqları üçün ciddi təhlükə mənbəyi olaraq qalmaqdadır.

44 günlük Vətən müharibəsi və münaqişənin bitməsindən sonra belə Ermənistan üzərinə götürdüyü öhdəliklərinə zidd olaraq, Laçın yolundan qeyri-qanuni məqsədlər, o cümlədən mina təhdidinin davam etdirilməsi məqsədilə istifadə edib. 2022-ci ildə Laçın və Kəlbəcər rayonlarının ərazisində 2021-ci il Ermənistan istehsalı olan 2700-dən çox piyada əleyhinə minanın aşkar edilməsi bu faktı təsdiqləyir. 2023-cü ilin sentyabr ayında antiterror tədbirlərindən sonra, Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində və bu ərazilərin perimetrləri boyunca 500 mindən artıq mina basdırıldığı faktının aşkarlanması bu təhdidin miqyasını sübut edən faktlardır. Bu, eyni zamanda, son onilliklər ərzində Ermənistan tərəfindən guya minaların istehsal və ixrac olunmadığı barədə bəyanatların heç bir əsasının olmadığını nümayiş etdirib.

## DÜNYA İCTİMAİYYƏTİNƏ, BEYNƏLXALQ QURUMLARA VƏ TƏŞKİLATLARA MÜRACİƏT

İndiyədək baş vermiş mina hadisələrinin coğrafiyası, onların əksəriyyətinin keçmiş təmas xəttindən kənarda, xüsusilə mülki obyektlərin, yaşayış məntəqələrinin, habelə məzarlıqların yerləşdikləri məkanlarda baş verməsi Ermənistanın mina təhdidinin məqsədyönlü şəkildə mülki əhali arasında itkilərin çox olmasına yönəldiyini sübut edir. Bu da öz növbəsində Ermənistan tərəfindən azərbaycanlılara qarşı mövcud etnik nifrət və dözümsüzlüyün növbəti təzahürüdür. Bu gün əlbəttə ki, azad edilən ərazilərdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanması və zərərsizləşdirilməsi üzrə tədbirlər davam etdirilir. Təhlükəsiz hərəkət üçün yollar minalardan təmizlənir. Onu da qeyd edək ki, mina partlayışları nəticəsində həyatını itirən insanların sayının artması nəticəsində Ermənistanı minalanmış ərazilərin xəritələrini verməyə məcbur etmək məqsədi ilə Azərbaycan tərəfindən dünya ictimaiyyətinə, beynəlxalq qurumlara və təşkilatlara, o cümlədən BMT-nin Baş Katibliyinə, BMT-nin İnsan Hüquqları Şurasına, Avropa Şurasına və Avropa İttifaqına müraciət ünvanlanıb.

Azərbaycan bu istiqamətdə ardıcıl işlər görür. Ermənistan minalanmış sahələrin tam xəritələrini verməsə də, bu gün artıq Azərbaycan işğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərini davam etdirir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Bağçada çalışanların əksəriyyətinin təhsili yoxdur”

*Təhsil eksperti Kamran Əsədovun SİA-ya verdiyi müsahibəsini təqdim edirik:*



## EKSPERTLƏ MÜSAHİBƏ

***- Təhsildəki problemlərin səbəbini nədə görürsünüz?***

- Təhsil çox geniş bir sahədir. Ölkədə ikinci elə bir sahə yoxdur ki, öz ətrafında iki milyon insanı eyni vaxtda birləşdirsin. Etiraf edək ki, Azərbaycan təhsili 2013-cü ildən sonra dəyişib. Bizim problem olaraq gördüyümüz şərti olaraq rüşvət, korrupsiyadır. 2013-cü ildən bəri təhsillə bağlı o qədər də ciddi problemimiz yoxdur. Təbii ki məktəblərdə fond pulu, süpürgə pulu kimi məsələlər hələ də qalır. Amma bunu qlobal problem hesab etmək olmaz. Problem dedikdə məzmun, standart və keyfiyyətdən danışmalıyıq. Məsələn, bu gün kimi dindirsən, orta məktəblərdə təhsilin olmadığını deyəcək. Niyə?! Səhər saat 8 dən başlayan bəs nədir?! Biz təhsil sisteminin nəticəsini hansı alətlə ölçürük? Birincisi qəbul və buraxılış imtahanlarının nəticələri ilə ölçürük.

Problem əlçatanlıqdır. Söhbət uşaq bağçaları və körpələr evindən gedir. Bu gün ölkədə 1693 uşaq bağçası var və cəmi 113 min uşaq təlim-tərbiyəyə cəlb olunub. Söhbət uşaq bağçalarından gedir. Yəni, əlçatanlıq yoxdur. Bağçada yer yoxdur. Amma orta ümumtəhsil məktəblərində müəllimlərin işə qəbulu mərkəzləşmiş test yolu ilə aparılır. Bilik və bacarığını göstər, sən də imtahandan keç. Bunu problem olaraq deyə bilmərik. Kadr siyasəti mərkəzləşmiş qaydada imtahanladır.

Uşaq bağçalarında işə qəbul məsələsi var. 2011-2021-ci illər arasında uşaq bağçaları icra hakimiyyətlərinin nəzdində idi. Siz həmin ilə aid bir dənə fakt göstərə bilməzsiniz ki, uşaq bağçalarında işə qəbul imtahanla olub. İnanın ki, orada çalışanların böyük əksəriyyətinin ya ümumiyyətlə təhsili yoxdur, ya da qeyri-sahənin insanlarıdır. Biz problemi keyfiyyətdə görürük. Problem bizim təhsil verənlərimizin bilik və bacarıqları ilə bağlıdır. Bu da ən yaxşı sertifikasiyada müəyyənləşir. Ölkədə 4 minə yaxın ibtidai sinif müəllimi özü oxumağı-yazmağı uşaqlara öyrətdiyi halda, bu bacarığa malik deyil.



***- Şagird-müəllim münasibətlərindəki problemlərin kökü Elm və Təhsil Nazirliyində, yoxsa valideyinlərdədir?***

- Bu gün orta ümumtəhsil məktəblərində 1,6 milyon uşaq təhsil alır. Ölkə əhalisinin 11 milyon olduğunu nəzərə alın. Bu il ali məktəblərə keçirilən imtahanlarda 600 dən yuxarı bal toplayan uşaqlar 16-17 yaşındadır. Mən sizə həmin yaşda xüsusi amansızlıqla cinayət törədən uşaqların sayını deyim? Bu say 400 nəfərə yaxındır. Yəni bu cəmiyyətdə olacaq. Bunun səbəbi Elm və Təhsil Nazirliyində, yaxud məktəbdə deyil.

2020-ci ilin martın əvvəlindən pandemiya səbəbindən onlayn dərslərə keçdik. Valideyn olaraq hər birimizin öhtəliyi övladlarımızın onlayn platformalara qoşulması üçün elektron resurslarla təmin etmək oldu. Biz buna məcbur idik. Dərsdən sonra da həmin alətlər uşaqların əllərində qaldı. Yaşlarına və psixologiyalarına uyğun olmayan sosial şəbəkələrdən istifadə etdilər. 2020-ci ilin martına qədər Azərbaycan seqmentində sosial şəbəkələrdən istifadə edən insanların sayı ilə ondan sonrakı arasında bilirsiniz nə qədər fərq var? 60 faiz artım olub. Bu xüsusilə ”TikTok” sosial şəbəkəsinə aiddir. Bunlar məhdudlaşdırılması mümkün olmayan sahələrdir.

1995-ci ilə qədər ölkədə nə qədər televiziya var idi?! Bir kanala baxıb məlumat alırdıq. İndi hərə öz auditoriyası ilə hər an canlı açıb insanlara xitab edir. İnformasiya mənbəyi kifayət qədər çoxalıb deyə uşaqlar dünyanın istənilən ölkəsinin sosial şəbəkələrinə daxil ola bilirlər.

Problem bilirsiniz hardadır?! Bilirəm, müəllim də insandır. Necə ki, polis, prokurorluq və məhkəmə orqanları sosial şəbəkədən məhdud istifadə edirlər, biz də müəllimə dövlət qulluqçusu statusu verməliyik. Çünki dövlət qulluqçusunun sosial şəbəkədən bu qədər rahat istifadə etməsi mümkün deyil. Onlar da insandır, başa düşürəm. Amma əziz qardaş, sən insan yetişdirirsən. Şagirdləriniz sizin gələcəyə göndərdiyiniz məktublardır, ünvanını bilmirsiniz, amma bu məktublar cavab olaraq sizə qayıdacaq. Bu məktubları nə qədər yaxşı yazsanız, onlar da sizə elə qayıdacaq. Məsələn, həkim, polis olara qayıdacaq.

***- Şagirdlərin növbə məsələsinə görə gecə saatlarında dərsdən çıxmasına münasibətiniz necədir?***

- Çox təəssüflər olsun ki, bu gün gənc analar sosial şəbəkədə vaxt keçirdikləri qədər övladlarına zaman ayırmırlar. Sonra deyirlər ki, uşaq niyə belə oldu? Bilirsiniz, bu tək məktəbin funksiyası deyil ki, sizə bilik versin, bacarıq formalaşdırsın, tərbiyə versin. Təbii ki bu olur. Amma bir yükün digər tərəfinə öz əlimizi də qoymalıyıq.

Bakının Xəzər rayonu Binə qəsəbəsi var ki, burada 80 mindən çox insan məskunlaşır. Orada 4-5 məktəb var. Şagird sayı da 26 mindir. Məktəblərin normal tutumu isə cəmi 12 minlikdir. Məskunlaşma zamanı mütləq yerlər ayrılmalıdır. Məktəb direktoru nə etsin?!

***- Ali təhsil müəssisələrində tələbələrin geyimi sizi qane edirmi?***

- Bu gün ali təhsil müəssisəsi mütəxəssis hazırlayan bir yerdir. Siz sabahın müəllimi, həkimisiniz. Təbii ki, xüsusi təyinatlı təhsil müəssisələri istisna olmaqla, digərləri geyimlə bağlı müqavilə olmasa tələbələrin geyiminə, saç-saqqalına müdaxilə edə bilməz.Tələbə gəncdir. Amma bu o demək deyil ki, siz təhsil müəssisəsində diqqət çəkəsiniz. Bu tədrisin normal təşkilinə mane olur. Yəni, sənin azadlığın mənə qədərdir. Əgər sənin azadlığın mənim diqqətimi pozacaqsa, buna icazə vermək olmaz. Geyim tədrisin keyfiyyətinə təsir göstərən amillər sırasında ilklər gəlir.

Elə bu küçədə görün nə qədər tələbənin əlində dəftər-kitab var? 100 tələbənin birində görə bilərsiniz. Mən bu barədə monitorinq aparıram. Məlum oldu ki, 20 min tələbənin cəmi iki mini kitabxanalarda qeydiyyatdadır. Dərsdən sonra kim necə istəyirsə, elə də geyinsin. Ali təhsil müəssisəsi öncədən elan etmək şərti ilə buna məhdudiyyət qoya bilər ki, sənin ayaqların bizim diqqətimizi pozur. ”Dress kod”lar tətbiq edilə bilər.



***- Uşaqların gələcək akademik fəaliyyəti üçün məktəbə Azərbaycan, yoxsa rus dilində başlamalıdırlar?***

- Birmənalı şəkildə Azərbaycan dilində başlamalıdırlar. Çünki resurslar kifayət qədər çoxdur. Bir ölkədə müxtəlif xarici dillər tədris oluna bilər. Bu akademik səviyyətə heç vaxt uğurlu ola bilmir.

Əgər sizin ailədə və cəmiyyətdə ünsiyyət vasitəsi kimi rus dili yoxdursa, övladınızı bədbəxt etməyin. Sizə bir nümunə deyim. Rus bölməsində birinci sinifə 15 min nəfər qəbul olub. 9-cü sinifə 6 min nəfər gəlib çatıb. Məzun olan isə 4 min nəfərdir. Onların böyük əksəriyyəti düşünür ki, rus dilində oxusa uğurlu bir mütəxəssis olacaq. Hər kəsə yalnız öz ana dilində təhsil almağı tövsiyə edirəm. Bu onların gələcək uğurlarının başlanğıcıdır.

***Ayşən Vəli***

# ABŞ-ın ikibaşlı Yaxın Şərq oyunu



**_ABŞ-ın Yaxın Şərq və İran oyunu artıq kimsəyə sir deyil, Vaşinqton ikibaşlı oyun oynayır, həm İranla, həm də İsraillə. Hər iki ölkəyə sanki diqtə edirmiş kimi davranır. Prezidenti Cozef Baydenin administrasiyası İsraildən İranın nüvə və sənaye infrastrukturuna hücum etməyəcəyinə dair şifahi təminat ala bilib. Baş nazir Benyamin Netanyahunun ofisi aydınlaşdırıb ki, hərbi ssenarinin seçimi yalnız İsrailin maraqlarının qorunmasından asılıdır. Yəhudi dövlətinin hərəkətləri artıq Vaşinqtonun regional siyasətinə düzəlişlər edib._**

Netanyahunun ofisi isə oktyabrın 15-də İrana hücumla bağlı İsrail və ABŞ arasında aparılan danışıqlara dair bəyanat yayıb: "Biz Amerika administrasiyasının mövqeyini nəzərə alırıq, lakin İsrailin maraqlarına uyğun yekun qərarlar verəcəyik". Kan Dövlət Teleradio Şirkəti səhər saatlarında Netanyahunun İrana hücum variantı ilə bağlı əsas nazirlərlə razılaşdığını bildirib. Müzakirəyə səbəb kimi "The Washington Post" qəzetinin xəbəri göstərilib, ona görə İsrailin baş naziri ABŞ prezidenti ilə söhbətində yəhudi dövlətinin hücum etməyi planlaşdırdığına dair fərziyyələr olsa da, yalnız İranın hərbi infrastrukturuna zərbələr endirəcəyini vəd edib. The Washington Post iddia edir ki, bu, Netanyahu hökumətinin "tammiqyaslı müharibənin qarşısını almaq üçün düşmənə qarşı daha məhdud cavab zərbəsi endirməyə" hazır olduğunu göstərir. Qeyd olunur ki, Vaşinqton Netanyahunun planını "rahatlıqla qəbul edib".



İranın biznes elitasına yaxın olan Amwaj mediası Amerika tərəfinin ona THAAD raketdən müdafiə batareyası göndərəcəyini vəd etməsindən sonra İsrailin yanaşmalarını yumşaltmağa razı olduğu versiyalara diqqət çəkir. Pentaqon bildirib ki, THAAD batareyasının ilk komponentləri ABŞ hərbi operatorları qrupu ilə birlikdə ölkəni və oradakı amerikalıları "İrandan gələn istənilən ballistik raket hücumundan" qorumaq üçün oktyabrın 14-də İsrailə gəlib. Yaxın vaxtlarda Yaxın Şərqə əlavə komponentlərin və hərbi mütəxəssislərin gəlməsi gözlənilir. Pentaqon əlavə edib ki, batareya "yaxın gələcəkdə istifadəyə hazır olacaq, lakin təhlükəsizlik səbəbi ilə" konkret tarixlər açıqlanmır. Bu, ABŞ-ın Yaxın Şərqdə THAAD-ı ilk dəfə yerləşdirməsi deyil - bu, sistematik şəkildə baş verir. Məsələn, Ağ Ev 2023-cü il oktyabrın 7-də HƏMAS-ın İsrailə qurudan hücumundan sonra bölgəyə THAAD batareyasının yerləşdirilməsinə göstəriş verib.

Financial Times mənbələri iddia edir ki, İsrail hazırda raketdən müdafiə sistemləri sarıdan problem yaşayır. Sənayeçilər və ekspertlər deyirlər ki, yəhudi dövləti bu problemlə "ölkəni İran və onun regional müttəfiqlərinin hücumlarından qorumaq üçün hava hücumundan müdafiəni gücləndirmək zərurəti ilə" üzləşib. "İsrailin bu cür silahlarla bağlı ciddi problemi var", Pentaqonun keçmiş baş qərar gah rəisinin Yaxın Şərq məsələləri üzrə köməkçisi Dana Strole deyib. "İran İsrailin hücumuna cavab verərsə və Hizbullah da ona qoşularsa, İsrailin hava hücumundan müdafiəsi son həddə çatacaq". Onun sözlərinə görə, Amerika eyni anda Ukrayna və İsrailə tədarükü "eyni tempdə" saxlaya bilməyəcək. "Biz uç nöqtəyə yaxınlaşırıq" deyə Stroul bildirib.



Amwaj mediası qeyd edib ki, İran rəsmiləri İsraildə THAAD batareyasına çox həssas yanaşıblar. Bunun fonunda İranın xarici işlər naziri Abbas Əraqçinin Bayden administrasiyası ilə Omanda keçirilən dolayı danışıqların dondurulduğunu elan etməsi illüstrativdir. "Maskat prosesi hazırda regiondakı konkret vəziyyətə görə dayandırılıb. İndi biz danışıqlar üçün əsas görmürük. Mövcud böhrandan çıxa bildikcə, bu işə qayıdıb-qayıtmayacağımıza qərar verəcəyik", - bunu iranlı nazir Maskata səfəri zamanı bildirib.

Belə bir fikir var ki, İslam Respublikası Kamala Harrisin ABŞ prezidenti seçiləcəyi təqdirdə danışıqlar prosesini canlandırmağı düşünür. İran rəsmisi keçmiş prezident Donald Trampın hakimiyyətə gəlməsini mənfi ssenari kimi qiymətləndirir: Respublikaçı Tehrana "maksimum təzyiq" doktrinasının tərəfdarıdır. Öz növbəsində Bayden administrasiyası diplomatik kanallar vasitəsilə Tehrana xəbərdarlıq edib ki, Trampın həyatına hər hansı cəhdi müharibə aktı kimi qiymətləndirəcək. Amerika kəşfiyyatı bu yaxınlarda İslam Respublikasını bir neçə dəfə belə bir ssenari hazırlamaqda ittiham edib. Bu ilin iyulunda Pensilvaniyada Trampa qarşı uğursuz sui-qəsd bu cür qorxuları daha da artırıb. Reuters həmsöhbətlərinin sözlərinə görə, prezident Bayden mütəmadi olaraq müvafiq təhdidlərlə bağlı situasiya hesabatları alır. Ağ Ev rəhbəri, bu məlumatlara görə, artıq öz komandasına Amerika yurisdiksiyasında İranın iddia edilən sui-qəsdlərinə qarşı durmağı tapşırıb.

Rusiyanın ABŞ-dakı səfirliyinin keçmiş əməkdaşı, beynəlxalq əlaqələr üzrə ekspert Vladimir Frolov söhbətində qeyd edib ki, Amerika tərəfi Netanyahunun indi Qəzza və Livandakı vəziyyətdən çıxmaq üçün əlavə strategiyasının olmamasından dəhşətə gəlib. O, xatırladıb ki, Vaşinqton ayrıca yəhudi dövlətinin 2006-cı ildə ikinci Livan müharibəsi zamanı olduğu kimi Sidrlər ölkəsində ilişib qala biləcəyindən narahatdır. "Netanyahunun reytinqinin indi yüksəlməsi ABŞ-a nikbinlik əlavə etmir", - Frolov izah edib. Onun sözlərinə görə, Baydenin siyasi strategiyası Səudiyyə Ərəbistanı ilə strateji müttəfiqlik bağlamaq, İsraillə münasibətləri normallaşdırmaq, Fəth, Misir və Körfəz ölkələri tərəfindən Qəzza zolağında yeni özünüidarə sistemini işə salmaqdan ibarət olub. iki dövlət yaratmaq qərarına gəlmək uğursuz olub. Həm Ağ Ev, həm də Dövlət Departamenti bununla bağlı ciddi məyusluq yaşayır, Netanyahu isə əsas müttəfiqinin bu barədə nə düşündüyünə məhəl qoymağa meyllidir.

## İsrail: Sülhməramlılar Hizbullahın "insan qalxanı"dır

BMT Katibliyi İsraili Livandakı Müvəqqəti Qüvvələrin bazasına (UNIFIL) hücum elan etməklə beynəlxalq hüququ pozmaqda ittiham edib. Oktyabrın 13-də dünya təşkilatının məlumatına görə, İsrail tankları Livanın cənubunda sülhməramlıların bazası ərazisinə soxulub. İsrail ordusu hadisəni qəza adlandırıb. Yəhudi dövlətinin baş naziri Benyamin Netanyahu isə hadisəni Livan Hizbullahının sülhməramlılardan "insan qalxanı" kimi istifadə edərək UNIFIL-in arxasında gizləndiyini söyləməklə izah edib. O, BMT sülhməramlılarının Livandan dərhal çıxarılmasını istəyib, lakin bu çağırış dünya təşkilatı tərəfindən məhəl qoyulmayıb.

BMT ilə İsrail arasında münasibətlər getdikcə gərginləşir. Oktyabrın 14-də BMT-nin baş katibi İsrail hərbçilərinin Livanın cənubunda sülhməramlıların bazasına hücumlarını pisləyib. BMT-nin müvəqqəti qüvvələri bazar günü İsrail tanklarının onun bazasına daxil olaraq giriş qapısını məhv etdiyini bildirib. Digər insidentdə isə İsrail tərəfdən atılan tüstü bombaları BMT-nin 15 sülhməramlısının yüngül xəsarət almasına səbəb olub. Oktyabrın 13-də axşam saatlarında İsrail ordusunun yaydığı bəyanatda deyilir ki, Merkava tankı yaralı əsgərləri təxliyə etməyə çalışır və tüstü ilə dolu şəraitdə atəş altında geri dönərkən səhvən sülhməramlıların postuna dəyib. Baş nazir Benyamin Netanyahu bildirib ki, İsrail hadisədən təəssüflənir və oxşar hadisələrin qarşısını almaq üçün əlindən gələni edir.

"Lakin bunu təmin etməyin sadə və aşkar yolu BMT qüvvələrini təhlükəli zonadan çıxarmaqdır", - deyə siyasətçi vurğulayıb və baş katib Quterreşi sülhməramlıları Livanın cənubundan çıxarmağa çağırıb. Antonio Quterresin sözçüsü Stefan Dujarrik İsrail baş nazirinin çağırışını rədd edərək, UNIFIL sülhməramlılarının "öz mövqelərində qaldığını, BMT bayrağının Livanın cənubunda dalğalanmağa davam etdiyini" vurğulayıb. "Baş katib bir daha təkrar edib ki, UNIFIL sülhməramlılarına və onların obyektlərinə hücum edilməməlidir. Sülhməramlılara hücumlar beynəlxalq hüququ pozur. Bu, müharibə cinayəti sayıla bilər", - deyə BMT sözçüsü xəbərdarlıq edib.

Bu arada radikal qruplaşma da bu və digər tələblərə məhəl qoymayaraq sərhədə yaxın və BMT sülhməramlılarının bazalarının yaxınlığında hərbi anbarlar və raket buraxılış qurğuları yerləşdirib. Oktyabrın 13-də İsrail hərbi komandanlığı xarici jurnalistlər üçün UNIFIL bazasından cəmi 200 metr aralıda yerləşən Hizbullah qrupuna aid tuneli və silah anbarlarını göstərmək üçün xüsusi press-tur təşkil edib. Buna baxmayaraq, İsrailin hərəkətləri yenidən dünya liderlərinin tənqid fırtınasına səbəb olub. Belə ki, Aİ-nin xarici siyasət idarəsinin rəhbəri Jozef Borrell İsrailin hərəkətlərini tamamilə qəbuledilməz adlandırıb, İspaniyanın baş naziri Pedro Sançes isə Aİ ölkələrini İsraillə azad ticarət sazişinin dayandırılması məsələsini nəzərdən keçirməyə çağırıb. Avstriyanın xarici işlər naziri Alexander Schallenberg İsrail və Livandan BMT qüvvələrinin "mandatına hörmətlə yanaşmağı" və onların təhlükəsizliyini və müdafiəsini təmin etməyi tələb edib.

Hər halda, Benyamin Netanyahu onun bəyanatının hər hansı təsir göstərəcəyini çətin ki, gözləmirdi: sülhməramlılar BMT Təhlükəsizlik Şurasının qətnaməsinə əsasən Livan ərazisindədirlər və onların çıxarılması baş katibə müraciətlə deyil, yalnız eyni qurum vasitəsilə həyata keçirilə bilər. Eyni zamanda, İsrail hərbi əməliyyatını dayandırmaq fikrində deyil. Birincisi, bütün sərhəd yaşayış məntəqələri artıq Hizbullahdan təmizlənib və hazırda İsrail ordusu Livanın şimal bölgələri də daxil olmaqla zərbələr endirir. Belə bir zərbə oktyabrın 14-də keçirilib, nəticədə (Livan hakimiyyətinin məlumatına görə) azı 18 nəfər həlak olub. İkincisi, İsrail ordusu Hizbullah liderlərini məhv etməyə davam edir. Oktyabrın 13-də İsrail Ordusu görünür, bölmələrdən birinin komandiri Məhəmməd Kamel Naimi (qrup hələ onun ölümünü təsdiqləməyib) öldürüb.

İsrail telekanalı Kan anonim mənbəyə istinadən yazıb ki, 1 oktyabr raket hücumuna görə İsrail ordusunun gözlənilən cavabı məhdud olarsa, İran İsrailə ümumiyyətlə hücum edə bilməz. Kan yazır ki, İran rəsmiləri bu barədə üçüncü ölkə vasitəsilə ABŞ-ı xəbərdar edib. "The New York Times" yazır ki, İsrailin cavab hücumunun ən çox ehtimal olunan hədəfi İran hərbi bazaları ola bilər. Oktyabrın 7-də Kan bildirib ki, ABŞ İran hədəflərinə hücumdan imtina etdiyi üçün İsrailə təzminat təklif edib. İran İsrailin hücumuna məruz qalacağı təqdirdə daha da sarsıdıcı zərbə vuracağını bildirib. Xüsusilə İran İsrailin bütün enerji sistemini məhv edəcəyinə söz verib. Oktyabrın 11-də "The Wall Street Journal" qəzeti yazıb ki, İran həmçinin ABŞ-ın Yaxın Şərqdəki müttəfiqlərini ərazilərindən və ya hava məkanından İrana hücum etmək üçün istifadə edərsə, onlara zərbə endirməklə hədələyib.

**_V.VƏLİYEV_**

# Qadın maksimum neçə övlad sahibi ola bilər?

***18-ci əsrdə Rusiyada Feodor Vasilyev adlı kəndlinin arvadı 69 uşaqla ən çox uşaq sahibi olan qadın kimi tanınır. Yerli monastırın Moskva hökumətinə verdiyi hesabata görə, 1725-1765-ci illər arasında xanım Vasilyev 16 əkiz, 7 üçəm və 4 dördəm dünyaya gətirib. Qadının 27 dəfə uşaq dünyaya gətirdiyi və ümumilikdə 69 uşaq sahibi olduğu bildirilib. Bəs, bir qadın maksimum neçə uşaq dünyaya gətirə bilər? Doğrudanmı 60-dan çox uşaq dünyaya gətirmək olar?***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Əvvəlcə Vasilyevlə bağlı hesabatın riyazi cəhətdən nə dərəcədə doğru olduğuna baxaq. 40 il ərzində 27 hamiləlik mümkün görünür. Biz bilirik ki, üçəmlər və dördəmlər vaxtından əvvəl doğulur. Buna uyğun olaraq 37 həftədə 16 əkiz, 32 həftədə yeddi üçəm, 30 həftədə dörd dördəm doğulduğunu nəzərə alsaq, Vasilyevin 18 il hamilə qaldığını deyə bilərik. Amma belə bir şeyin həqiqətən mümkün olub-olmaması başqa məsələdir.



## Doğurqanlıq dövrü

Əvvəla, qadının doğurqanlığı bu qədər uzun müddət davam edə bilərmi? Doğurqanlıq ümumiyyətlə yumurtalıqların hər 28 gündə bir yumurta istehsal etməyə başladığı 15 yaş civarında başlayır və təxminən 51 yaşında klimaksla bitir. Ancaq klimaksdan çox əvvəl doğurqanlıq şansı azalır. 45 yaşdan sonra qadının hər ay hamilə qalma şansı yüzdə 1 civarındadır. Çünki yaş irəlilədikcə yumurtaların keyfiyyəti və sayı xeyli azalır. Dişi körpələr təxminən bir milyon yumurta istehsal etmək qabiliyyəti ilə doğulur, lakin onlardan yalnız bir neçə yüz mini böyüklər kimi sağ qalır.





Ara-sıra qadınların 40 yaşdan sonra uşaq dünyaya gətirməsi xəbərləri ilə rastlaşsaq da, əksər qadınlar 42-44 yaşdan sonra hamilə qalmır.



Bundan əlavə, hər hamiləlik qadının reproduktiv orqanlarının zədələnməsinə səbəb olduğu üçün yenidən hamilə qalma şansını da azaldır. Bu hesablamaya görə, xanım Vasilyev hətta 50 yaşında uşaq dünyaya gətirmiş olmalıdır.

## Doğuş problemləri

Növbəti yaşlarda hamilə qalma şansının azalması da təkamül baxımından olduqca məntiqlidir. Çünki hamiləlik və doğuş orta yaşlarda daha da çətinləşə bilən proseslərdir.

Bir neçə əsr əvvəl Rusiyanın kənd şəraitində 69 körpənin dünyaya gəlməsi ilə bağlı deyilənlərin doğruluğunu şübhə altına alan məqam da budur. İnkişaf etmiş ölkələrdə doğuşla bağlı problemlərə görə ölən qadınların sayı çox azdır. Məsələn, Dünya Bankının statistikasına görə İngiltərədə hər 100 min canlı doğuşda 8 qadın ölürsə, Sierra Leonedə bu rəqəm 1100-dür. Xanım Vasilyevin 27-ci ad günündə ona heç nə olmaması inanılmazdır. Əvvəllər qanaxma və s. kimi problemlər xüsusilə çoxlu doğuşlarda ciddi risk yaradırdı.



## Çoxsaylı doğuşlar

Vasilyevin çoxlu əkiz, üçəm və dördəm dünyaya gətirməsi iddianın etibarlılığını daha da sarsıdır. Belə hamiləliklər olduqca nadirdir. Məsələn, İngiltərədə 2012-ci ildə əkiz hamiləlik nisbəti 1,5 faiz, üçəmlərin nisbəti on mində 3, dördəmlərin nisbəti isə 778 mində 3 idi.

Belə doğuşlar irsi xarakter daşıdığından, bəlkə də Fedorun arvadı ifrat nümunə kimi qəbul edilə bilər. Ancaq başqa şeyləri bir yana qoysaq, 16 əkiz hamiləlik və sağlam doğum ehtimalı çox astronomik görünür. Üstəlik, bu 69 uşaqdan 67-nin yaşaması o dövrün şərtlərini nəzərə alsaq.

Əgər bütün bunlar doğrudursa, bu qədər uşağa baxmağın əziyyəti o qədər böyük olmalı idi ki, Vasilyev cütlüyü onilliklərlə davam edən nikahlarına son qoymuşdu. O ki qaldı bu günə... Həqiqətən limit nədir sualına cavab verməк bu gün daha mürəkkəbdir, çünki "təbii" limitlər artıq keçərli deyil.



1970-ci illərdə inkişaf etdirilən köməkçi məhsuldarlıq üsulları sayəsində çoxlu doğuşlarda əhəmiyyətli artım olmuşdur. Bundan əlavə, surroqat analar fenomeni də ailədə ola biləcək uşaqların sayını artıra bilər.

Son araşdırmalar qadın yumurtalıqlarının "ovosit kök hüceyrələri", başqa sözlə yetişməmiş yumurta hüceyrələrindən ibarət olduğunu və düzgün stimullaşdırıldıqda, demək olar ki, qeyri-məhdud sayda yumurta istehsal oluna biləcəyini göstərdi. Bu hüceyrələr insanlardan başqa bütün canlılarda yeni yumurta istehsalını təmin edir. Bəzi həkimlər bu məsələyə şübhə ilə yanaşsa da, bəziləri bu mexanizmin qadınlarda işə salına biləcəyini və xərçəng müalicəsi kimi səbəblərdən doğuş qabiliyyəti erkən bitən qadınlara yeni imkanların açıla biləcəyini düşünür.



Bu ehtimalı nəzərdən keçirin: Yumurtalıqları həddən artıq stimullaşdırmaqla, qadının bir çox yumurtası eyni anda yetişə və sərbəst buraxıla bilər. Daha sonra bu yumurtalar əməliyyat yolu ilə çıxarılır, bədəndən kənarda mayalanır və surroqat anaların rəhminə yerləşdirilir. Bu yolla qadınlar da kişilər kimi yüzlərlə, hətta minlərlə uşaq sahibi ola bilirlər.

***Ayşən Vəli***

# Əli Kərimli məhkəmə qarşısına çıxarılmasından niyə qorxur?

## Cəbhəçilərin "Yurd" şefinə qarşı xüsusi ittiham qaydasında iddia qaldırması AXCP-nin sonunu gətirə bilər

Dağıdıcı müxaliflər yazdıqları statuslarında, paylaşdıqları videolarında o fikri vurğulayırlar ki, hər bir problem, ziddiyyətlər hüquqi müstəvidə həll edilməlidir. Zatən hüquqi dövlət quruculuğu ilə inamla irəliləyən Azərbaycanda hər bir vətəndaş üzləşdiyi problemin və ya razılaşmadığı qərar və hərəkətlərlə bağlı məhkəməyə müraciət edir. Hələ bu günə qədər hansısa ölkə vətəndaşı, siyasi, ictimai təşkilat rəhbəri qaldırmaq istədiyi məhkəmə iddiasına rədd edilməsi faktı ilə rastlaşmayıb. Deməli, Azərbaycanda məhkəmə sistemi azaddır və müstəqil fəaliyyət göstərir. Kimsə, xüsusilə dağıdıcı müxaliflər və xaricdəki antimilli ünsürlər məhkəmlərimizlə bağlı boşboğazlıq edirlərsə və hüquq-mühafizə orqanları haqqında qarayaxma kampaniyası aparırlarsa, bu, onların sifariş almalarından, tapşırıq yerinə yetirmələrindən irəli gəlir. Qeyd etdiklərimə əyani misal, AXC sədri Əli Kərimli və onun ətrafında olan troll dəstəsi daim məhkəmə -hüquq sisteminə qarşı şər və böhtanlar səsləndirirlər. Ə.Kərimli vaxtaşırı olaraq ziddiyyət yaradan məsələlərə məhkəmələrdə baxılmadığını, baxılarkən səthi yanaşıldığını bildirir. Lakin cəbhəçilərdən bir onunla bağlı məhkəməyə şikayət edərkən küçə revanşistlərisayağı hay-küy qaldırır, xaricdəki ağalarına "donos"lar ünvanlayır. Nə baş verir, niyə növbəti dəfə Ə.Kərimli AXCP-nin çoxluğu tərəfindən ittiham edilir, məhkəməyə çəkilir? Birinci səbəb ondan ibarətdir ki, Ə.Kərimli AXCP-də diktatura idarəetmə üsülu qurub. İkincisi, kimi istəsə partiyadan xaric edir, kimi də yuxarı başda görmək istəsə kollegial orqanların fikrini nəzərə almadan vəzifələrə təyin edir. Üçüncüsü isə, partiyanın qurultayını nizamnamə pozuntusuna və "Siyasi partiyalar haqqında qanunun" tələblərini pozmaqla keçirib. Dördüncüsü isə, məhkəmənin qərarı ilə partiyaya bərpa edilməli olan AXCP MNTK-nın sədri Aydın Əliyevin hüquqlarını kobud şəkildə pozur. Aydın Əliyev Ə.Kərimli tərəfindən hüquqlarının tapdanması və şəxsiyyətinin təhqir edilməsi ilə barışmayaraq yenidən onu məhkəməyə verib.

### Aydın Əliyev Əli Kərimlinin həbs edilməsində israrlıdır

E-mehkeme.gov.az poratlında yayılan məlumata görə, AXCP-nin Nəzarət Təftiş Komissiyasının sədri olmuş, daha sonra partiya sıralarından xaric edilən Əliyev Aydın Sədədqulu oğlu Əli Kərimlinin Cinayət Məcəlləsinin 147-ci (böhtan) və 148-ci (təhqir) maddələri ilə məsuliyyətə cəlb edilməsi ilə bağlı Nəsimi Rayon Məhkəməsinə müraciət edib. İddiaçı Əli Kərimli barəsində Cinayət Məcəlləsinin 147.1 (Böhtan, yəni yalan olduğunu bilə-bilə hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitəsində yayma) maddəsi ilə cinayət işi başlanmasını istəyir. Cinayət işinin sanksiyasına görə, ittiham edilən şəxs yüz manatdan beş yüz manatadək miqdarda cərimə ilə və ya iki yüz qırx saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Məlum olduğu kimi, AXCP NTK-nın sədri olmuş Aydın Əliyevin Ə.Kərimlinin tələbinə əsasən, partiya sıralarından xaric edilib. A.Əliyev AXCP sıralarından xaric edilməsini partiya nizamnaməsinin tələblərinə və Azərbaycan qanunvericiliyinə zidd olduğunu əsas gətirərək hüquqlarının bərpası iddiası ilə Nəsimi rayon məhkəməsinə müraciət edib. Bu barədə, "Səs" qəzetinə açıqlamasında A.Əliyev bildirdi ki, Nəsimi rayon məhkəməsinin hakimi Rəşid Səmədovun sədrliyi ilə keçirilən prosesdə iddia təmin olunub: " AXCP sədri Əli Kərimli partiyada sərt diktatura rejimi qurub. Onun antidemokratik hərəkətlərinə etiraz edənləri müxtəlif üsullardan istifadə etməklə partiyadan uzaqlaşdırır. Əli Kərimli qatı diktatordu. O cəbhəçiləri aldadır, xalqımıza və dövlətimizə qarşı xəyanət edir". Ə.Kərimli Məhkəmə qərarına əsasən A.Əliyevi partiyaya bərpa etməkdən imtina etməklə yanaşı AXCP-nin iyunun 24 - də keçirilən 7-ci qurultayında kobud saxtakarlığa yol verib. Bu da bir çoxları kimi partiyanın MNTK sədri olmuş A.Əliyevin ciddi narazılığına səbəb olub. A.Əliyev məsələnin hüquqi müstəvidə həllinə nail olmaq üçün yenidən Nəsimi rayon məhkəməsində Ə.Kərimliyə qarşı iddia qaldırıb. Onun bu dəfə ki, iddiasının əvvəlkilərdən fərqi ondadır ki, hazır ki məhkəmədə Ə.Kərimliyə qarşı xüsusi ittiham qaydasında iddia irəli sürüb və məhkəmədən onun həbs olunaraq cəzalandırılmasını istəyib. Təbii ki, biz hüquqi dövlətdə yaşayırıq və məhkəmə Ə.Kərimliyə qarşı irəli sürülən iddiaları, sübut və dəlilləri araşdırıqdan sonra müvafiq qərar qəbul ediləcək.

Hələlik isə ortada olan fakt ondan ibarətdir ki, hazırda Nəsimi rayon məhkəməsində proses keçilir. Məhkəmə qərarını qəbul edənə qədər Ədliyyə Nazirliyi AXCP-nin 24 iyun tarixli 7-ci qurultayının nəticələrinin hüquqi şəxslərin dövlət reyestrində qeydə alınmasından imtina edib. Nazirliyin imtina qərarı AXCP üzvlərindən birinin qurultay nəticələrinin etibarsız hesab edilməsi tələbinə dair iddia ərizəsinin Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi tərəfindən mümkün hesab edilməsi və həmin qərardadın Ədliyyə Nazirliyinə daxil olması ilə əsaslandırılıb. Söz yox ki, qanun aliliyi qorunacaq və saxtakarlıq edən Ə.Kərimli cəzalanacaq. Daha doğrusu, sədr seçkisindən narazı qalan partiyanın qurultayının nümayəndələrinin iddiaları Nəsimi Rayon Məhkəməsi tərəfindən təmin olunacaq. Bundan sonra ya AXCP növbəti qurultay keçirməli, ya da Ə.Kərimli sədrlikdən könüllü şəkildə istefa verməlidir. Əks halda qurultayın nəticələri Ədliyyə Nazirliyinin hüquqi şəxslərin dövlət reyestrində qeydə alınmayacaq. Bu isə AXCP adlı qondarma qurumun tarixin arxivinə atılması deməkdir.



### Əli Kərimlinin məhkəmə önündə mitinq təşkil etməsi qanunazid hərəkətdir

Diqqətçəkən məqam ondan ibarətdir ki, Ə.Kərimli məhkəməyə verilməsini sakit qarşılayıb, prosesin sonunu gözləməkdənsə, ənənəsinə uyğun olaraq başının dəstəsi ilə məhkəmə önünə gedib hay-küyçü açıqlamalarla, çağırışlarla çıxış edir. Hətta azad, demokratik mühitin verdiyi imkanlardan sui-istifadə edərək mitinq təşkil edib, dövlətə, məhkəmə sisteminə qarşı ittihamlar irəli sürür. Ətrafında fırlanan məddahları və trolları da onunla ağız-ağıza verib, şər və böhtanlar səsləndirirlər. Bütün bunlar isə təbii ki, qanunvericiliyə zidddir. Birincisi, qanunun aliliyinə hörmət edilməli və məsələnin necə bitəcəyini gözləməlidir. İkincisi, hay-küy, şər və böhtanlar məhkəməyə təzyiq elementi hesab olunur ki, bu da qanunvericiliyə görə yolverilməzdir. Üçüncüsü isə, məhkəmənin önü aksiya keçirmək və şivən qoparmaq yeri deyil, bunu da hüquqşünas adına iddia edən Ə.Kərimli bilməmiş deyil. Nəhayət, hay-küy, ittihamlar qorxaqlığın və qanunlar qarşısında zəifliyin əlamətidir.

**İLHAM ƏLİYEV**



# Eynəkli uşaqların artma səbəbi telefonlardır?

## HƏKİM ŞƏRH ETDİ



"Son zamanlar ekologiyanın pozulması, ekoloji tarazlığın pozulması səbəbindən, xüsusən də atmosferdən zərərli qazların artması səbəbindən bütün dünyada quru göz xəstəliyi müşahidə olunur". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Tibb Universitetinin göz xəstəlikləri kafedrasının müdiri, professor Paşa Qəlbinur deyib. Həkim bildirib ki, quru göz, gözlərin quruması selikli qişada mayenin azalması səbəbindən yaranır: "Bununla da zərərli xəstəliklər inkişaf edir. Quru göz sindromu (Göz quruluğu), gözün ön hissəsini qoruyan və nəm saxlayan gözyaşı qatının azalması və ya qeyri-bərabər olmasıdır. Bu təbəqə gözlərimizi toz, külək və bəzi mikroorqanizmlər kimi xarici faktorlardan qoruyur. Gözümüzün önündə bir şüşə təbəqə kimi olan buynuz qişamız çox incə bir toxumaya malikdir. Bu təbəqənin sağlam və hamar olması önəmlidir.

Göz quruluğunun səbəbi həm ətrafdakı faktorlar, həm də xəstə ilə əlaqəli faktorlar ola bilər. Göz quruluğuna kompyuter kimi monitorların qarşısında uzun saat qalması və ya kontakt linzaların düzgün istifadə edilməməsi səbəb ola bilər. Bundan başqa, bəzi revmatik xəstəliklər göz quruluğuna səbəb ola bilər. Xəstənin bəzi xəstəliklər səbəbindən istifadə etdiyi dərmanlar da göz quruluğuna səbəb ola bilər.

Göz quruluğu olan xəstələri ən çox narahat edən şikayətlər; Yanma və batma hissi; Qızartı; Həddindən artıq yaşarma, yorğunluq hissi; Kontakt linza istifadə etmə zamanı narahatlıq hissidir. Əlavə olaraq göz ağrısı, qaşınma və qızartı kimi şikayətlər rast gəlinə bilər. Xəstələrdə quru göz sindromu yaranarsa, əvvəlki fəaliyyətlərində çətinlik çəkə bilərlər. Məsələn, kompyuter qarşısında əvvəlki kimi rahat olmadıqlarından və ya gözlərin tez yorulduğundan şikayətlənirlər".

"Ancaq eynək taxmaq, yaxından, uzaqdan görmək quru gözlə bağlı deyil. Quru gözün özünün müalicəsi var ki, süni göz yaşları damızdırılır, həkim nəzarətində olur. Vaxtaşırı, 2-3 aydan bir həkimin nəzarətindən keçilməlidir. Ancaq eynək taxmaq istər uşaqlarda, istənilən yaşlı insanlarda refraksiya anomaliyalarına səbəb olur. Onun da xüsusi dərmanlarla, həm lazer şüalarla, həm də başqa üsullarla müalicə üsulları var. Hər bir xəstə ayrıca dünyadır. Onu müayinə etmək lazımdır. Müalicə, müayinə üsullarının hansına göstəriş varsa, onu da etmək lazımdır.



Göz, görmə orqanı çox vacib orqandır. Orada olan patologiyani vaxtında həkimə müraciət edəndə onun qarşısını almaq olur. Ona görə də heç vaxt səhlənkarlıq, tənbəllik etməyin. Gözünüzdə nəsə patoloji proses olanda, şikayətiniz olanda professional həkimlərə müraciət edin" - deyə o əlavə edib.

**Söylü Ağazadə**

# "Qərb Rusiyanın tərəfdaşlarına təzyiq göstərir, lakin Azərbaycan buna qarşı duracaq"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

**"Valday" Beynəlxalq Diskussiya Klubunun İnkişaf və Dəstək Fondunun İdarə Heyətinin sədri Andrey Bıstritski "Moskva-Baku" portalına müsahibəsində Qərbin MDB ölkələrinə "prioritet" təzyiqini şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.**



***- Rusiya bir sıra digər ölkələr kimi Qərbin sanksiya siyasətinə çoxdan öyrəşib. Sergey Lavrov bu yaxınlarda MDB ölkələri liderlərinin sammitinin yekunlarına görə, Birlik dövlətlərinin Rusiya Federasiyasına görə Qərbin onlara etdiyi təzyiqlərin öhdəsindən yaxşı gəldiyini söylədi. Rusiyaya az-çox dost olan ölkələr, xüsusən də MDB dövlətləri həqiqətən nə dərəcədə təzyiq altındadır?***

- Şübhəsiz ki, Qərb MDB ölkələrinə təzyiq edir və şübhəsiz ki, Birlik dövlətləri də bu təzyiqin öhdəsindən gəlirlər. Sadəcə reallığa baxın. Ümumiyyətlə, bu, Sergey Viktoroviç Lavrovun verdiyi ədalətli qiymətdir. Rusiya üçün MDB Rusiya Federasiyasının Xarici Siyasət Konsepsiyasının son nəşrinə əsaslanaraq MDB əsas prioritetlərdən biridir. Belə çıxır ki, Qərb üçün bu istiqamət Rusiyaya qarşı istifadə üçün mərkəzi istiqamətlərdən biridir. Qərb Rusiyaya qarşı hər şeydən istifadə edir, dünyanın istənilən yerində istənilən fürsəti axtarır. Birlik dövlətləri xüsusilə ona görə hədəfə alınır ki, onlar qonşudurlar, Rusiyanın sıx əlaqələri olan yaxın ölkələrdir. Ona görə də Qərb əlindən gələni edir.

MDB xarici işlər nazirlərinin Moskvada keçirilən sammitində Avrasiya təhlükəsizlik strategiyası planı imzalanıb. Bu plan Birliyin bütün dövlətləri üçün strateji əhəmiyyət kəsb edir. Əks halda imzalanmazdı. Bu mövzuda söhbət uzun müddətdir ki, gedir. Müasir dünyada çoxlu qırılma xətləri var, ona görə də Avrasiyanın təhlükəsizlik planı Avrasiyanın kifayət qədər sürətlə inkişaf etməsinin nəticəsi idi. Qitənin çoxlu insan, iqtisadiyyat və resurslara malik olması səbəbindən onun rolu artır. Təhlükəsizlik isə belə artımın sabitliyini təmin edən elementlərdən biridir.

***- Bu sənədin icrası nə dərəcədə çətindir?***

- Mürəkkəbdir. Amma biz bunu kifayət qədər həyata keçirə bilirik. Onun mürəkkəbliyini də şişirtmək olmaz. Ev tikmək çətindir? Çətindir. Amma bu mümkündür. Burada da məsələ belədir.

***- Bu sənədlə bağlı, yəqin ki, bir növ mövqelərin birliyindən, ölkələr arasında nailiyyətlərin kompromisindən danışmaq məntiqlidir. Amma Ermənistan son anda bu sənədi imzalamadı. Niyə?***

- Fakt budur ki, Ermənistan indiki rəhbərliyi altında hansısa heyrətamiz manevrlər həyata keçirməyə, müxtəlif qüvvələr arasında sürüşməyə çalışır. Bunun nə dərəcədə real olduğu bilinmir. Amma bu, Ermənistanın müstəqil ölkə kimi inkişafı təəssüratı yaratmağa çalışan respublikanın indiki hakimiyyətinin ruhundadır ki, bununla da mübahisə etməyə dəyər. Ermənistan hakimiyyəti tərəfindən belə bir cəhd var. Qərb isə bundan istifadə edir, İrəvan özü də çalışır ki, Qərb Ermənistandan istifadə etsin. Ermənistan bu gün birtəhər bir neçə kresloda oturmağa çalışır. Çox çətindir. Və belə bir hiylə həmişə yaxşı bitmir.

Belə bir siyasət (bu, Ermənistan hakimiyyətinin illüziyasıdır) İrəvanın təfsirinə görə, guya ölkənin suverenliyini inkişaf etdirməyə yönəlib. Amma biz İrəvanın bəzi MDB ölkələri ilə necə məsafə yaratmağa, onlardan uzaqlaşmağa çalışdığını açıq şəkildə görə bilərik. O, tamamilə uzaqlaşmaqdan qorxur: çünki iqtisadi və texniki cəhətdən əlverişsizdir, lakin biz belə manevrləri müşahidə edə bilərik. Söhbət Ermənistanın Belarus və Rusiyaya iddialarından gedir. İrəvan çox şeylər deyir və aktiv siyasi ritorika aparır. Çoxlu demarşlar, manevrlər, bəyanatlar var. Gəlin görək bu hara aparır. Siyasət mürəkkəbdir və vəziyyət xətti inkişaf etməyə bilər.



Qərb Cənubi Qafqazda parçalanma yaratmaq üçün İrəvanın bu cür gedişlərindən istifadə etməyə çalışır və dünyanın istənilən yerində bunu etməyə çalışır. Qərb özünü bütün dünyadan təcrid etməyə çalışır. Dünyanın müəyyən yerlərində onun nəzarət edəcəyi bir iyerarxiyanı qorulmasına çalışır. O, bütün dünyanı cəbhələrə bölmək istəyir.

***- MDB dövlətlərinə təzyiq və sanksiyalar məsələsinə qayıdaq. Azərbaycan noyabrda BMT-nin iqlim konfransına ev sahibliyi edəcək. Son vaxtlar bir sıra Qərb ölkələrindən konfransın ləğvi və ya Bakıdan Qarabağ məsələsi ilə bağlı bəzi şərtlərin yerinə yetirilməsi tələbi ilə bağlı çağırışlar dalğası gəlir. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini tamamilə geri qaytarması "xəritəsi" bu istiqamətdə fəal və mənfi şəkildə istifadə olunur. Bu cür siyasi təzyiqlər fonunda Azərbaycanın zəngin siyasi təcrübəsini nəzərə alaraq Bakı buna diqqət yetirməlidirmi?***

- Hər şeyə fikir vermək lazımdır. Digər məsələ ona necə yanaşmaqdır. Bugünkü Azərbaycan müstəqil fəaliyyət göstərmək iqtidarındadır ki, bunu əslində son zamanlar nümayiş etdirir. Və o bunu davam etdirəcək. Düşünmürəm ki, Qərb Bakıda ilin aparıcı iqlim hadisəsini böyük ölçüdə nəzərə almaya bilsin.

***- Bəs Qərb Azərbaycan və Ermənistanın problemlərindən istifadə edərək Bakıya təzyiq edəndə məqsədi nədir? Məsələ təkcə iqlim konfransı deyil, onilliklər ərzində Azərbaycana qarşı müntəzəm davranışdır. Bu, ABŞ-ın Azərbaycana qarşı son sanksiyalarına misaldır, bu həm də AŞPA-da Azərbaycan Respublikasının tənqidinə misaldır ki, Bakı bu strukturda iştirakını dayandırmaq qərarına gəlib...***

- Bu, belə tipik Qərb xəttidir. Dediyim kimi, bu, dünyaya öz şərtlərini diktə etmək istəyidir. Öz müstəqil siyasətini qurmaq istəyənlər üçün isə onlar xüsusilə nəzarət altındadırlar. Əgər onlar Rusiyaya yaxındırlarsa, bu gün bu, Qərb üçün xüsusilə vacibdir. Amma Azərbaycan bunun öhdəsindən gələcək. Konkret olaraq Azərbaycana gəlincə, burada Qərb Bakı ilə Ankara yaxın olduğundan Türkiyəyə hansısa yolla təzyiq göstərməyə çalışır.

***- Suveren ölkələr nə etməlidir ki, bu sanksiyalar tətbiq etmək taktikası nəhayət öz mövcudluğunu dayandırsın və real effekt verməsin?***

- Bu çox uzaqdır. Bu mürəkkəb çoxvektorlu prosesdir. Bunun nə vaxt bitəcəyini söyləmək çətindir. Çünki bu sanksiyaların böyük resursları var. Bu cür taktikalar Qərb ölkələrində daxili ictimai rəyi birləşdirmək üçün işləyir. Sanksiyaların köməyi ilə Qərb öz elitasını manipulyasiya edir. Yəni bu, təkcə xarici təsir aləti deyil, həm də xarici aləmə qarşı təcrid və düşmənçilik edən, indiki dünyada öz mövqeyindən qorxan Qərb elitasının bir hissəsinin güclənməsidir. Dünyanın daha çox tərəfdaşlığa əsaslanan əməkdaşlıq, dövlətlər arasında daha bərabərhüquqlu əməkdaşlıq məntiqinə doğru getməsi Qərbin xoşuna gəlmir. Dünya əksəriyyətinin bu gün nə çox, nə də az səy göstərdiyi məhz budur.

Təəssüf ki, Qərb dövlətləri münaqişəni gərginləşdirməyə çalışırlar. Və bu çox uzağa götürülə bilər. Düşünürəm ki, o, artıq çox irəli gedib. Ancaq görünür, burada dayanmaq istəmir. O, getdikcə daha çox irəli getməyə can atır.

Gələcəkdə dünya tamamilə parçalananda belə bir süjetin inkişaf etməsi mümkündür. Və bunun çox hissəsi açıq və effektiv olacaq, bunlar bərabərhüquqlu əməkdaşlığa yönəlmiş eyni ölkələr olacaq. Digər tərəfdə isə Qərb dünyası olacaq.

***Tərcümə - Elçin Bayramlı***

# Yeni internetin sürəti vətəndaşları qane edirmi?



**Avqustun 15-dən etibarən edilən dəyişikliklər əhalinin yüksəksürətli internetə olan tələbatında artım tendensiyasını nəzərə alaraq, göstərilən xidmətin keyfiyyətinin yüksəldilməsi və dayanıqlı infrastrukturun təmin edilməsi məqsədilə həyata keçirilib. Şirkət GPON (Gigabit Passive Optical Network - Gigabit tutumlu Passiv Optik Şəbəkə) tarifləri üzrə təqdim olunan sürətləri 2.5 dəfə (40 Mbit/s internet sürətini 100 Mbit/s-yə, 60 Mbit/s internet sürətini 150 Mbit/s-yə və 100 Mbit/s sürətini isə 250 Mbit/s-yə qədər) artırıb.**

Yeni sürət tariflərində abunəçilər üçün minimal sürət 100 Mbit/s-dən başlayıb və hər Mbit/s üçün ödəniş məbləği 0.45 AZN-dən 0.25 AZN-ə endirilib. Belə ki, abunəçilərə 100 Mbit/s internet üçün 25 AZN, 150 Mbit/s internet üçün 30 AZN, 250 Mbit/s internet üçün 36 AZN qiymət təklif edilib.

Qeyd edilən qiymət dəyişiklikləri "Aztelekom" MMC-nin təqdim etdiyi xüsusi güzəşt tariflərini, o cümlədən şəhid ailələri və müharibə əlilləri üçün güzəştli "Təşəkkür" tarif paketlərini əhatə etmir. Bəs 25 manatlıq internet provayderində internetin sürəti vətəndaşları qane edirmi? SİA mövzu ilə bağlı şəhər sakinlərinin fikirlərini öyrənib.

**Şəhər sakini Nüsrət Süleymanov:** "İnternetin qiyməti qalxandan sonra onun sürətində dəyişiklik hiss etməmişəm. Elə həmin sürətdir. Fərqi yoxdur. Əvvəl 18 manat ödəyirdim, indi isə 25 manat ödəyirəm. İnternetdən çox istifadə edirik. Filmləri, xəbərləri izləyirik. Sosial şəbəkələrdən istifadə edirik. Faydası çoxdur mənə görə".

**Şəhər sakini Nigar Kərimova:** "Mənim fikrimcə, internetin sürəti yaxşılaşıb. Əvvəl görüntülü danışanda teztez donurdu. İndi isə yaxşıdır. Əvvəl 25 manat ödəyirdik, indi isə 29 manat ödəyirik. İnternetsiz həyatı təsəvvür edə bilmirəm. Əvvəl internet olmayıb, amma dövrlər arasında da fərq çoxdur deyə, indi mümkün deyil. Əvvəl uşaqlar oyuncaqla oynayardı, indi körpə uşaqlar telefonla oynayırlar".

**Şəhər sakini Amid Qasımov:** "Qiymətlər artandan sonra internetin qiymətində qismən də olsa, dəyişiklik var. Hal-hazırda 27 manat ödəyirəm. Ondan əvvəl 18 manat ödəyirdim. Müasir dövrdür, internetsiz təsəvvür edə bilmirəm".

**Şəhər sakini Ələmdar Seyidzadə:** "İnternetin sürətində dəyişiklik hiss edirəm. Şəkillər olsun, videolar olsun sürətli açılır. Əvvəl 18 manat idi, indi 25 manat olub, amma dəyişiklik də var. Pisi odur ki, qiymət qalxdı. Bütün işimiz internetlədir. Onsuz heç bir işimiz getmir. Hər işimi yüngülləşdirir. Pulum belə M10-da olur. Üstümdə pulqabı daşımıram".

**Şəhər sakini Adil Rzayev:** "İnternetin sürətində heç bir fərq hiss etmirəm. İndi 25 manat ödəyirəm, amma dəyişiklik yoxdur. İnternetlə daha çox sosial şəbəkələrdən istifadə edirəm. Bir çox işimi asanlaşdırır".

**Şəhər sakini Aygün Aydınlı:** "İnternetin sürəti qalxıb, amma qiyməti də çox qalxıb. 15 manat ödəyirdim, indi isə 27 manat ödəyirəm. Mən həkiməm, işlərimiz, sənədlər, hamısı internetlə həll olunur. Lazım olanda da istirahət üçün televizora qoşub kinoya baxıram".

***Söylü Ağazadə***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## İngiltərə millisində ingilis olmayan üçüncü baş məşqçi...



Tomas Tuhelin artıq futbol üzrə İngiltərə millisinin yeni baş məşqçisi təyin olunduğu rəsmən açıqlanıb. Almaniyalı mütəxəssis İngiltərə yığmasında ingilis olmayan üçüncü baş məşqçidir. Ondan əvvəl Sven-Yoran Eriksson (İsveç) və Fabio Kapello (İtaliya) kimi qeyri-ingilis mütəxəssis də yığmanı çalışdırıb. Qeyd edək ki, 51 yaşlı Tuhel vəzifəsinin icrasına 2025-ci ildən başlayacaq.

## Bakı-Quba yolunda ağır qəza - 5 nəfər xəsarət alıb

Bakı-Quba yolunun Siyəzən rayonu ərazisindən keçən hissəsində yol-nəqliyyat hadisəsi baş verib. SİA xəbər verir ki, "Mercedes" markalı avtomobilin qəzaya uğraması nəticəsində Xaçmaz Peşə Liseyinin 5 nəfər əməkdaşı xəsarət alıb. Onlar Siyəzən Müalicə Diaqnostika Mərkəzinə yerləşdirilib. Faktla bağlı araşdırma aparılır.



## BAŞSAĞLIĞI

Professor Fərahim Sadıqov, Əməkdar artist Zakir Mirzəyev, Əməkdar incəsənət xadimi Ağalar İdrisoğlu, Əməkdar jurnalist Zakir Abbas, aktyorlar Məhərrəm Musayev və Sabir Məlikov ailə üzvləri ilə birlikdə, Şəfəq xanım Əlixanlıya həyat yoldaşı, tanınmış yazıçı, dramaturq, tərcüməçi, Əməkdar mədəniyyət işçisi

**Vaqif Əlixanlının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin!***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 2700**